

# Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili

*Müəllimlər üçün metodik v əsait*

2021

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Mündəricat


**I FƏSİL. İnklüziv təhsilin mahiyyəti** **4**
1.2. İnklüziv təhsil ilə bağlı hüquqi baza 5
1.3. Əlilliyin tibbi və sosial modeli 6
1.4. Əlilliklə bağlı münasib terminologiya 7
1.5. Damğalama və onun mənfi nəticələri 8
1.6. Əlilliyi olan uşaqların xüsusiyyətləri və müəllimə tövsiyələr 9

**II FƏSİL. Uşaqyönlü pedaqogika** **19**
2.1. Uşaqyönlü pedaqogikanın əsasları 19

**III FƏSİL. Universal öyrənmə dizaynı** **22**
3.1. Universal Öyrənmə Dizaynı və onun əsas prinsipləri 22
3.2. Diferensiallaşdırma və fərdiləşmə 25

**IV FƏSİL. Universal skrininq** **27**
4.1. Universal skrininqin mahiyyəti 27
4.2. Skrininqin keçirilməsində etik məsələlər 28
4.3. Skrininq alətlərinin nümunələri 30

**V FƏSİL. Fərdi təlim planı** **33**
5.1. Fərdi Təlim Planının mahiyyəti və strukturu 33

**VI FƏSİL. Universal sinif strategiyaları** **34**
6.1. Bütün uşaqlar və müxtəlif əlilliyi olan uşaqlar ilə bağlı müəllimə təlimatlar 34
6.2. Akkomodasiya və modifikasiya 36

**VII FƏSİL. İnklüziv məşğələ planlarının hazırlanması** **38**
7.1. Məktəbəqədər hazırlıq qruplarında inklüziv məşğələ nümunəsi 38

**VIII FƏSİL. Formativ qiymətləndirmə** **40**
8.1. Formativ qiymətləndirmənin əsasları 40

**XI FƏSİL. Müəllim və valideynlər üçün yardımçı resurslar** **41**
9.1. Müəllim-müəllim və müəllim-valideyn əməkdaşlığının faydası 42

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** **48**

**Əlavələr** **52**

**Məsləhətçi:** **Ülkər Babayeva,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini*

**Elmi redaktor:** **İlham Cavadov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi-pedaqoji tədqiqatlar mərkəzinin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Müəlliflər:** **Laləzar Cəfərova,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun şöbə müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim*

**Aysel Qasımova,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun aparıcı mütəxəssisi, iqtisad üzrə fəlsəfə doktoru*

**İlahə Rəsulova,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin baş mütəxəssisi*

**Aydan Əzimzadə,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun mütəxəssisi*

**Fuad Ələkbərov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun mütəxəssisi*

**Telli Həsənova,**
*Bakı şəhəri T.İsmayılova adına 6 nömrəli məktəb-liseyin məktəbəhazırlıq pilləsi üzrə koordinatoru*

**Rəyçilər:** **Ənvər Abbasov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim*

**Ülviyyə Mikayılova,**
*ADA Universitetinin baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru*

**Həzi Eynalov,**
*Bakı Mühəndislik Universitetinin müəllimi, iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Fərqanə Seyidli,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun baş mütəxəssisi*

**Ülkər Zaidzadə,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun aparıcı mütəxəssisi*

**Dizayner:** **Xanım Əzimli**
*Müstəqil dizayner*

# Giriş

***Məktəbəhazırlıq qrupunun əhəmiyyəti və əhatəsi.*** Müasir təhsildə ən aktual məsələlərdən biri uşaqların məktəb təliminə hazırlanmasıdır. Məktəbəhazırlıq dövrü əsasən 5-6 yaşlı uşaqları əhatə edir. Uşağın məktəbə hazırlığı dedikdə, onun məktəb həyatına fiziki, əqli, sosial, psixoloji hazırlığı və məktəbdə təlimə başlamaq üçün müəyyən ilkin bacarıq və qabiliyyətlərin inkişafı nəzərdə tutulur.

Müasir dövrdə ümumi təhsil müəssisələrində yeni məqsəd və təlim nəticələrinə yönəldilmiş məktəbəhazırlıq üzrə işin təşkili bu gün cəmiyyətin məktəbin qarşısında qoyduğu yeni tələblərə cavabdır. ***Məktəbəhazırlığın təşkilinin məqsədi isə*** uşaqların məktəb təliminə hazırlıqlı başlaması, təlim prosesinə öncədən alışması və onlarda müəyyən bilik, bacarıq vərdişlərinin formalaşdırılmasıdır. Məktəbəhazırlığın vəzifələri uşaqlarda oxumaq həvəsinin, məktəbə müsbət emosional münasibətin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün fərdi sosial xüsusiyyətlərin formalaşdırılmasıdır.

***Məktəbəhazırlığın hüquqi əsasları.*** "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013) 2020-ci ilədək erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin 90 faiz səviyyəsinə çatdırılması bir vəzifə kimi qarşıya qoyulmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" 271 nömrəli, 11 iyul 2016-cı il tarixli qərarı və ""Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə dəyişikliklər edilməsi barədə" 272 nömrəli qərarlarına və həmin qərarların icrası barədə təhsil nazirinin (5 avqust 2016-cı il, №548) müvafiq əmrlərinə əsasən, ümumtəhsil məktəblərində dövlət büdcəsinin vəsaiti hesabına məktəbəhazırlıq qrupları təşkil edilir.

Azərbaycan Respublikası təhsil nazirinin 16.09.2016-cı il tarixli, 614 nömrəli əmrinə 2 nömrəli əlavəyə əsasən, məktəbəhazırlıq məşğələləri gün ərzində 3 (üç) məşğələ tədris olunmaqla, həftədə 4 (dörd) gün keçirilir. Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqəsi keçirilir. Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar üçün ev tapşırıqları nəzərdə tutulmur. Bu qərarın icrası ilə bağlı Azərbaycan Respublikasının Təhsil Nazirinin 5 avqust 2016-cı il tarixdə imzaladığı 548 №-li əmrə əsasən, 2016-2017-ci tədris ilindən ümumtəhsil məktəblərində 5 yaşlı uşaqların dövlət hesabına məktəbəhazırlıq təhsilinə başlanılmışdır. Qanunvericiliyə uyğun olaraq, məktəblərdə hazırlıq qruplarının fəaliyyəti 1 oktyabr tarixindən 31 may tarixinədək davam edir.

***Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkilinin məqsədi və vəzifələri.*** Əlilliyi olan məktəbəqədər yaşlı uşaqların da məktəbə hazırlıqla əhatəsi çox aktual məsələdir.

*Müasir dövrdə inklüziv təhsil dedikdə*, əlilliyi olan şəxslərin təhsil hüququnun təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edilməsi və onların təhsili üçün maneəsiz mühit yaradılması nəzərdə tutulur. İnklüziv təhsilin məqsədi uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, öz həmyaşıdları ilə eyni məktəbdə, eyni sinifdə təlimə cəlb etməklə, onların səmərəli öyrənməsini təmin etməkdir. İnklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, uşaqlara mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir. Əlilliyi olan uşaqlar digər həmyaşıdları ilə birlikdə böyüdükdə və təlim prosesində iştirak etdikdə, onlar qarşılıqlı anlaşma və hörmət hissini özlərində inkişaf etdirirlər.

**Metodik vəsait ümumtəhsil məktəblərində təşkil edilmiş məktəbəhazırlıq qruplarında çalışan müəllimlərin əlilliyi olan uşaqlarla təlim prosesini səmərəli təşkil etmələrinə kömək etmək məqsədilə hazırlanmışdır. Vəsaitdə inklüziv təhsilin təşkilinin həm nəzəri, həm də praktik məsələləri təqdim edilir.**

# I FƏSİL. İnklüziv təhsilin mahiyyəti




***İnklüziv təhsil*** (fr. *inclusif* –"özünə daxil edən", lat. *include* –"daxil edirəm") - təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. Bu, əlilliyi olan uşaqların da təhsilə cəlb olunmasını təmin edir. Azərbaycan BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına qoşulmuş bir ölkə kimi, əlilliyi olan şəxslərin təhsil hüquqlarını tanıyır və onların inklüziv təhsilini təmin etmək məqsədilə aşağıdakı öhdəlikləri öz üzərinə götürmüşdür:

- Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərindən kənarlaşdırılmamasını təmin etmək;
- Yaşadıqları icmada digərləri ilə bərabər şəraitdə inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;
- İnklüzivliyin tam şəkildə təmin olunması üçün akademik və sosial inkişafa şərait yaradan mühitdə fərdi ehtiyaclara uyğun zəruri dəstək tədbirlərini təmin etmək.

Təhsilin inklüziv olması üçün yuxarıda qeyd edilən bu şərtlərin təmin edilməsi mütləqdir. İnklüziv təhsil uşaqyönlü metodologiyanı inkişaf etdirməyi hədəf götürür və bütün uşaqların təhsildə müxtəlif ehtiyaclara malik olduqlarını qəbul edir, eyni zamanda onların bu ehtiyaclarının təmin edilməsi üçün daha səmərəli yanaşmalar işləyib hazırlamağı tələb edir.

İnklüziv təhsil aşağıdakıları özündə ehtiva edir:

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;
2. Hər kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
3. Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;
4. Bütün insanlar biri-birinə lazımdır;
5. Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;
6. Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;
7. Bütün uşaqların inkişafı onların bilik və bacarıqlarından asılıdır;
8. İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir.

İnklüziv təhsil təhsilin bütün pillə və səviyyələrini əhatə etməklə, istər əlilliyi olan və ya olmayan şəxslərin bərabər təhsil alma hüquqlarını təmin edir və bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaratmış olur. İnklüziv təhsillə bağlı beynəlxalq təcrübəyə görə, bir sinifdə təhsil alan əlilliyi olan uşaqların sayı 5-10% olmalıdır. 2016-cı ilin statistikasına görə, Azərbaycanda təxminən 65 minə yaxın sağlamlıq imkanları məhdud olan uşaq var.

Onlardan yalnız 12 mini təhsilə cəlb olunub, o cümlədən, 1105-i xüsusi məktəblərdə, 2664-ü xüsusi internat məktəblərində, 7750-si evdə, 268-i isə inklüziv təhsil alır. Təhsilə cəlb olunanların əksəriyyəti isə xüsusi məktəb və internat-məktəblərdə oxuyurlar. Belə təlim-tərbiyə uşağın diqqətini onun çətinlikləri üzərində cəmləyir. Onlar digər uşaqlarla ünsiyyətə girməkdə çətinlik çəkir və özlərini bir növ cəmiyyətdən təcrid olunmuş kimi hiss edirlər. Əlilliyi olmayan uşaqlar da eyni zamanda, bu və ya digər məkanda əlilliyi olan uşaqla rastlaşdıqda ona təəccüblə baxır və fərqli reaksiya verirlər. Bunun əsas səbəbi isə onlar arasında ünsiyyətin, əməkdaşlığın olmamasıdır. Bunun nəticəsində onlar bir-birilərini dərk etmir və nə hiss keçirdiklərini başa düşmürlər.
Bu cür problemlərin aradan qaldırılması üçün müasir dövrdə beynəlxalq əməkdaşlıq və elmi yanaşma nəticəsində bəşəriyyətin inkişafında zəruri mərhələ kimi inklüziv təhsilin tətbiqinin ümumi effektiv istiqamətləri işlənib hazırlanıb. Hazırda dünyanın bir çox ölkələrində (Böyük Britaniya, ABŞ, İsveçrə və s.) əlilliyi olan uşaqlar digər yaşıdları ilə birlikdə ümumtəhsil məktəblərində təhsil alır və uşaq bağçalarına gedirlər. Əlilliyi olan uşaqların əlilliyi olmayan həmyaşıdları ilə təhsilə birgə hazırlanması üzrə məsuliyyət mahiyyət etibarı ilə daha çox müəllim, tərbiyəçi-müəllim və psixoloqun üzərinə düşür. Ümumiyyətlə, əvvəlcə onların təhsilə daha tez uyğunlaşması, uşaqlarla effektiv ünsiyyət qura bilməsi nəzərdə tutulur. Məsələn, uşaq bağçalarında, yaxud məktəbəqədər hazırlıq keçirilən təhsil müəssisələrində tərbiyəçi-müəllimlərin əsas rolu uşaqlarda kollektivçilik, əmək vərdişləri, davranış, etik və əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi, dünya haqqında ilkin təsəvvürlərin yaradılması və digər funksiyaları həyata keçirməkdən ibarətdir. Bir sözlə, məktəbəhazırlıq prosesində pedaqoq uşağı fiziki və mənəvi cəhətdən cəmiyyət tərəfindən müəyyən edilmiş vəzifələrə uyğun şüurlu fəaliyyətə hazırlayır.

### 1.2. İnklüziv təhsil ilə bağlı hüquqi baza

İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüquqna əsaslanır. İnklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin prioritetlərindəndir və bir sıra beynəlxalq konvensiyalar, həmçinin milli qanun-vericilik ilə dəstəklənir. Azərbaycanda inklüziv təhsil aşağıdakı hüquqi bazaya əsaslanır:

***Beynəlxalq hüquqi baza:***

- BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948)
- BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyası (1989)
- BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyası (2006)

Yerli hüquqi baza:

- Azərbaycan Respublikasının Konstitusiyası (1995)
- “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu (2009)
- “Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı” (2005 - 2009-cu illər)
- Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” (2018–2024-cü illər)

Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanununun (2017) 3-cü maddəsində məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri izah edilir və 3.0.1-cü maddəsində isə “məktəbəqədər təhsil sahəsində bərabər imkanların yaradılması” nəzərdə tutulur. Həmin qanunun 3.0.6-cı maddəsində isə konkret şəkildə “sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilinin təşkili” prinsip kimi təsbit olunub. Ümumiyyətlə, ölkəmizdə təhsil siyasətinin məqsədi bütün vətəndaşlar üçün keyfiyyətli təhsilin təmin edilməsindən ibarətdir. İnklüziv təhsil isə təhsil siyasəti və təcrübəsi baxımından əhəmiyyətli dərəcədə ümumi təhsilin əsaslarına təsir edən yeni perspektivli strategiyadır.

## 1.3. Əlilliyin tibbi və sosial modeli

Müəllimin əliliyi olan uşağa düzgün yanaşması üçün onun əlilliyin modelləri barədə məlumatlı olması vacibdir. Əlilliyin, əsasən tibbi və sosial modeli fərqləndirilir.

***Əlilliyin tibbi modeli.*** Əlilliyin ənənəvi tibbi modeli tibbi yanaşma da adlanır və diqqəti fərdin üzərində cəmləyərək, onu problemi olan insan kimi təsvir edir. Bu model şəxsin cəmiyyətdə fəal olmasına mane olan ətraf mühit amillərini və ya ətrafdakı maneələri nəzərə almır. Spesifik olaraq inklüziv təhsil kontekstində isə, ənənəvi tibbi model əlilliyi olan uşaqların təhsilin bütün pillə və səviyyələri üzrə öyrənmək və səmərəli şəkildə iştirak etmək imkanlarını məhdudlaşdırır. Əlilliyin tibbi modeli insan hüquqlarına əsaslanan yanaşmanın dinamikliyini və kompleks xarakterini əks etdirmir, çünki o, bizim uşağa onun tibbi vəziyyəti/diaqnozu əsasında baxmağımıza gətirib çıxarır. Əlilliyin tibbi modeli aşağıdakı ehtimallara əsaslanır:

- Digərlərindən fərqlənən bir qrup uşaq müəyyən edilə bilər.
- Bu uşaqlar problemlərinin öhdəsindən gəlmək üçün xüsusi tədris olunmalıdır.
- Ən yaxşısı oxşar problemlər yaşayan uşaqların bir yerdə təhsil almasıdır.
- Digər uşaqlar “normaldır” və mövcud təhsil formalarından yararlanırlar.

Bu yanaşma əlilliyi olan uşaqlardan gözləntiləri aşağı salır və bu da onların öyrənmə nəticələrinə mənfi təsir edir, əlilliyi olan uşaqlara tədris edən müəllimlərin etimadını azaldır, əlilliyi olan uşaqlara yalnız mütəxəssislərin dərs deyə biləcəyi fikrini gücləndirir, ayrıseçkilik və təcrid olunmaya gətirib çıxarır, eləcə də fərdi xüsusiyyətlərə fokuslanmaq bütün uşaqlar üçün tədris və təlimin yaxşılaşdırılması imkanlarını azaldır. Nəticədə, biz görəcəyimiz tədbirlər maneələrin aradan qaldırılması və təhsil sistemində islahat aparmağa yönəltmək əvəzinə, uşağı malik olduğu əlilliyə görə damğalayırıq.

***Əlilliyin sosial modeli.*** Bu model sosial yanaşmaya əsaslanır və əlilliyi ayrı-seçkilik edən cəmiyyətin öz daxilindəki maneələrdən irəli gələn fenomen kimi nəzərdən keçirir.  Başqa sözlə desək, əlillik əlilliyin özündən deyil, əlilliyi olan şəxslərin cəmiyyətdə digərləri ilə bərabər əsasda dolğun və effektiv iştirakını çətinləşdirən ətraf mühitdə qarşılaşdıqları maneələrdən qaynaqlanır. Aşağıdakı səbəblərə görə biz əlilliyə ənənəvi tibbi yanaşmanı unutmalı və sosial yanaşmaya keçməliyik:

- Sadəcə əlilliyi olan uşaqlar deyil, bir çox uşaqlar məktəbdə öyrənərkən çətinliklərlə üzləşirlər;
- Bu çətinliklər tədrisi yaxşılaşdırmaq üçün istifadə edilə biləcək yollara işarə edə bilər;
- Bu təkmilləşdirmələr bütün uşaqlar üçün təlim şəraitinin yaxşılaşdırılmasına gətirib çıxara bilər;
- Müəllimlərin fəaliyyətlərinin daha inklüziv olması üçün əlilliyi olan uşaqlarla ayrıca məşğul olmaq üçün mütəxəssislər cəlb etmək əvəzinə onların praktiki fəaliyyətinin inkişaf etdirilməsinə dəstək göstərmək lazımdır.

Nəzərdə saxlamaq lazımdır ki, biz problemi təhsildə axtararaq təhsilə çıxışı və iştirakı məhdudlaşdıran maneələri aradan qaldırmağa başlasaq, təhsil sistemi təkcə əlilliyi olan uşaqlar üçün deyil, hər kəs üçün daha yaxşı olacaq. İnklüziv məktəb hamı üçün yaxşı keyfiyyətli məktəb deməkdir.

### 1.4. Əlilliklə bağlı münasib terminologiya

Əlilliklə bağlı düzgün ifadələrin istifadəsi əlilliyi olan insanlara qarşı münasibətin formalaşmasında mühüm rol oynayır. İstifadə etdiyimiz ifadələr əlilliyi olan şəxslərin təsviri ya inklüzivliyin təşviqinə xidmət edə, ya da əksinə, cəmiyyətdə neqativ stereotiplərin, damğalamanın (nişanlamanın) yaranmasına səbəb ola bilər. Düzgün ifadələrin istifadəsi ilə bağlı aşağıdakı göstərişlərə diqqət yetirin (Cədvəl 1):

| İstifadə Etməyin | İstifadə Edin |
|---|---|
| • əlil, qüsurlu, xəstə, məhdudiyyətli, anormal, defektiv, əlilliyi olan, atipik | • əlilliyi olan şəxs/ uşaq |
| • normal/sağlam/tipik | • əlilliyi olmayan şəxs/ uşaq |
| • əqli məhdudiyyətli, əqli qüsurlu, əqli geriliyi olan | • intellektual/ koqnitiv/ inkişaf əlilliyi olan şəxs/ uşaq |
| • kor, görmə qüsurlu | • görmə əlilliyi olan şəxs/ uşaq |
| • kar, lal, eşitmə qüsurlu | • eşitmə əlilliyi olan şəxs/uşaq |
| • öyrənmə əngəlli | • öyrənmə əlilliyi olan şəxs/uşaq |
| • Autist, autik | • Autizm spektr pozuntusu olan şəxs/uşaq |
| • Daun | • Daun sindromu olan şəxs/uşaq |





### 1.5. Damğalama və onun mənfi nəticələri

Uşağın tibbi vəziyyətini və ya diaqnozunu bilmək onun məktəbdə ehtiyacı olduğu dəstəyi almasını təmin etmək baxımından müəyyən dərəcədə faydalı ola bilər. Lakin damğalama (bəzi ədəbiyyatlarda "nişanlama" da adlandırılır) əksər hallarda ətraf mühitin və sosial proseslərin yaratdığı əngəlləri nəzərə almadığı üçün uşağın məktəb həyatına çox mənfi təsir edir.

Biz əlilliyi olan uşağı onun tibbi diaqnozu əsasında damğaladıqda, bu, onun ehtiyac duya biləcəyi dəstək barədə stabil fikir yaradır. Damğalama ilə bağlı problem ondan ibarətdir ki, uşaqlar heç vaxt müstəsna olaraq damğalara uyğun gəlmirlər, buna görə də onlar üçün eyni damğa ilə təsvir olunan digər uşaqlarla eyni dəstək tələb olunmur.

***Damğalamanın mənfi təsirləri:***

- Damğalama insanları o fikrə gətirib çıxarır ki, şəxsin malik olduğu məhdudiyyət sabitdir və dəyişə bilməz. Bu isə, insanın malik olduğu məhdudiyyətlə təsvir olunmasına gətirib çıxarır və məhdudiyyətlərin zamanla dəyişə biləcəyini nəzərə almır: biz hamımız yaşlandıqca müəyyən məhdudiyyətlər qazana bilərik.

- Damğalama, həmçinin uşağın müxtəlif güclü cəhətlərini və istedadını nəzərə almır. Bütün uşaqlar düzgün həvəsləndirmə və dəstəklə məktəbdə iştirak edə, qarşılıqlı ünsiyyətdə ola, öyrənə və mühitə uyğunlaşa bilərlər. Uşağın malik olduğu məhdudiyyətə görə damğalanması bizi onun qabiliyyətləri, istedadı və istəkləri barədə öyrənməkdən çəkindirə bilər.

- Damğalama uşağa qarşı gözləntilərin aşağı düşməsinə səbəb olur. Müəllimlərin onları həddən artıq qorumağa çalışması isə uşaqların darıxmasına və həvəsdən düşməsinə səbəb ola bilər.

- Damğalama müəyyən alt-qrupa daxil olan bütün uşaqların xüsusi resurslarla xüsusi qaydada öyrədilməsi fikrini möhkəmləndirir.

- Müəllimlər hesab edə bilər ki, uşağın öyrənməklə bağlı çətinliklərini aradan qaldırmaq mümkün deyil. Onlar elə fikirləşirlər ki, onlarla məşğul olmaq ekspertlərin işidir.

- Müəllimlərin inamını azalda bilər. Onlar düşünə bilər ki, bu uşaqları öyrətmək üçün onlara xüsusi resurslar lazımdır. Bu isə uşaqların onlara qoyulan nişanlara müstəsna olaraq uyğun olmadığı fikrini təkrarlayır.

Diqqətin bu uşaqlara həddən çox yönəlməsi məktəbi hər kəs üçün yaxşılaşdırmaq imkanlarının itirilməsinə s əbəb ola bilər. Əsas diqqət fərdlərə yönəldiyinə görə, daha geniş məktəb icmasına, məktəbin quruluşu və kurikulumun uyğunluğuna diqqət yetirilmir. Nəticədə, əlilliyi olan uşaqların təlimində fərq yaranır.

### 1.6. Əlilliyi olan uşaqların xüsusiyyətləri və müəllimə tövsiyələr

İnklüziv təhsil bütün uşaqların təhsil hüququnu nəzərdə tutduğu üçün müəllimlərə dəstək məqsədilə əlilliyi olan bəzi qrup uşaqların xüsusiyyətləri və onlara düzgün pedaqoji yanaşmanın qurulması üçün təlimatlar aşağıda təqdim edilmişdir:

**1. Öyrənmə çətinliyi olan uşaq**

Öyrənmə çətinliyi olan uşaqlar əlilliyi olan uşaqların əksər hissəsini təşkil edir. Öyrənmə çətinliyi bir sıra araşdırmalarda az fərqlər olmaqla müxtəlif cür izah edilir. Əlilliyi olan Fərdlərin Təhsil Aktına (İDEA) görə, öyrənmə çətinliyi - anlama, şifahi/yazılı nitqə daxil olan psixi proseslərdən biri və ya bir neçəsində olan problemlərin təsiri nəticəsində düşünmək, nitq, dinləmək, oxumaq, yazmaq, riyazi əməliyyatlar etmək, qavrama bacarıqlarındakı pozuntudur. Öyrənmə çətinlikləri, ümumi olaraq, 3 əsas növə ayrılır. Yüngül dərəcəli öyrənmə çətinliyi olan uşaqların, adətən sadə savad və riyazi bacarıqlarında çətinlik olur. Orta dərəcəli öyrənmə çətinliyi olan uşaqların isə yuxarıda sadalananlarla yanaşı, nitq geriliyi, dil inkişafı, zəif sosial bacarıqlar, həmçinin emosional və davranış çətinlikləri də ola bilər. Ağır dərəcəli öyrənmə çətinliyi olan uşaqlar yuxarıda sadalalanlara əlavə olaraq, çox sadə özünəxidmət bacarıqlarında, məsələn, geyinib-soyunma, ayaqyoluna getmək sahəsində çətinlikləri ola bilər. Daha kəskin öyrənmə çətinliyi olan uşaqlar yuxarıda sadalanan çətinliklərin daha ağır formasını özündə birləşdirir.

***Yüngül və orta dərəcəli öyrənmə çətinliyi olan uşaqların xüsusiyyətləri:***

- Qısa diqqət davamlılığı.
- Təlimatları anlamaq çətinliyi.
- Oxu, yazı və riyazi bacarıqlarla bağlı çətinliklər.
- Nitq və dil bacarıqlarında gerilik.
- Kiçik və böyük motor bacarıqları ilə bağlı çətinlik.
- Yaşına uyğun olmayan davranış.

***Müəllim üçün tövsiyələr:***

- Uşağın inkişaf səviyyəsini müəyyənləşdirmək və məşğələni onun səviyyəsinə uyğunlaşdırmaq;
- Uşağın güclü tərəflərini diqqətdə saxlayıb, zəif tərəflərini inkişaf etdirmək;
- Tapşırığı kiçik hissələrə bölmək və hər dəfə bir hissəyə fokuslanmaq;
- Tapşırığı uşağın bacarığına uyğun seçmək və onun öhdəsindən gələcəyinə əmin olmaq;
- Uşağın mövcud bilik və bacarıqlarını qiymətləndirmək;
- Uşağın öyrənməsini asanlaşdırmaq üçün materialları təkrarlamaqla möhkəmləndirmək;
- Şifahi nitqə və sosial bacarıqlara daha çox fokuslanmaq;
- Praktiki fəaliyyətlərdən istifadə etmək, məsələn, oyunlar, rol oyunları, ekskursiyalar, simulyasiyalar;
- Vizual və praktiki vəsaitlərdən istifadə etmək, məsələn əskinazların sayılması;
- Əyani vəsaitlərdən istifadə etmək, məsələn, plakatlar, şəkillər, cədvəllər və s.;
- Prioritetləşdirmək: Uşaq nəyi mütləq öyrənməlidir, nəyi öyrənməsi yaxşı olardı və ya öyrənə bilər;

## 2. Autizm spektr pozuntusu olan uşaq

Autizm spektr pozuntusu olan uşaqların müxtəlif səpkili bacarıqları var. Yüngül Autizm spektr pozuntusu olan uşaqlarda orta və orta səviyyədən bir az aşağı əqli əlillik olur. Onlar arasında Asperger sindromuna belə rast gəlinir. Ağır Autizm spektr pozuntusu olan uşaqlarda isə orta səviyyədən yuxarı əqli geriləmə olur, bir çox vacib həyati bacarıqları olmur.



***Autizm spektr pozuntusu olan uşaqların xüsusiyyətləri:***

- Nitq və dil inkişaf geriliyi və ya nitq pozğunluğu olur, məsələn, eşitdiyi söz və ya söz birləşmələrini təkrarlayır;
- Valideynləri və digərlərinə qarşı biganə olurlar;
- İrəli-geri yellənir, başını harasa çırpır, kiçik əşyaları tullayır;
- Hər gün təkrar olunan adəti fəaliyyətlərə bağlı olur və yeni fəaliyyətlər olanda gərgin olurlar;
- Müəyyən əşyalara aşırı bağlı olurlar, məsələn: maşın, tozsoran və s.;
- Çağırılanda reaksiya vermir, göz təması zəif olur və ya kənar səslərə çox həssas olurlar.

***Müəllim üçün tövsiyələr:***

- Uşağın inkişaf səviyyəsini müəyyənləşdirmək, onun bu tapşırığın öhdəsindən gəlməsi üçün məşğələni onun səviyyəsinə uyğunlaşdırmaq;
- Tapşırığı kiçik hissələrə bölmək və hər dəfə bir hissəyə fokuslanmaq;
- Ünsiyyət bacarıqları və gündəlik bacarıqların inkişafına diqqət yetirmək;
- Sosial bacarıqlar üzərində işləmək: göz kontaktı qurmaq və ya nəsə soruşmaq;
- Materialın təkrarlanmasına, mükafatlandırmaya və təşviqetmə fəaliyyətlərindən istifadə etmək;
- Arzu olunan davranış üçün mükafatlandırmaq, pis davrandıqda mükafatı geri almaq;
- Narahatedici davranışa fikir verməmək;
- Valideyn, digər müəllim və mütəxəssislərlə əməkdaşlıq etmək;
- Fərdi təlim planının hazırlanmasında iştirak etmək;
- Uşağın xoşbəxtliyini, özünə inamını və özünü qiymətləndirməsini diqqətdə saxlamaq.

## 3. Disleksiyası olan uşaq

Disleksiyalı uşaqların yazı, oxu, riyazi bacarıqlarından birini və ya bir neçəsini əldə etməsində çətinliyi olur.

***Disleksiyalı uşaqların xüsusiyyətləri:***

- Şifahi nitq və yazı bacarıqları arasında uyğunsuzluq;
- Vizual və eşitmə bacarıqlarında çətinliklər;
- Qısa müddətli yaddaş və ya ardıcıllıqla bağlı problemlər;
- Diqqətini cəmləmə, təşkilatlanma və ya sol-sağ istiqaməti ilə bağlı problemlər;
- Səslərin (fonoloji) emalı ilə bağlı problemlər.

***Müəllim üçün tövsiyələr:***

- Sinifdə ön cərgədə oturtmaq və yazı taxtasından köçürtməni azaltmaq;
- Uşağın oxu səviyyəsinə və maraqlarına uyğun material seçmək;
- Tapşırığı kiçik hissələrə bölmək və onun tamamlanması üçün münasib vaxt ayırmaq;
- Bütün deyil, daha mühüm yazı səhvlərini seçmək və vurğulamaq;
- Audio-vizual köməkçi vasitələrdən istifadə etmək;
- Öyrənmə üsullarını öyrətmək – sual, oxumaq, əzbərləmək, yenidən nəzərdən keçirtmək;
- Fonetika haqqında məlumatlılığın artırmaq – vəzn (ritmlilik) və dinləmə məşğələsi təşkil etmək;
- Uşağın güclü və zəif hissələni diqqətdə saxlamaq;
- Uşağın xoşbəxtliyini, inam və özünüqiymətləndirməsini əsas tutmaq.



## 4. Yüngül və orta eşitmə əlilliyi olan uşaq

***Yüngül və orta eşitmə əlilliyi olan uşaqların xüsusiyyəti:***

- Eşitmə çətinliyi, təlimatı izləmək və sinifdə diqqət problemi olur;
- Aydın olmayan nitq və çox məhdud söz ehtiyatı olur;
- Təlimatlara cavab verə bilmir;
- Sinifdə özünü təhlükədə hiss edir;
- Səs-küylü sinifdə aydın eşitmir, dinləyəndə başını bir tərəfdən digər tərəfə çevirir;
- Qulaq və baş ağrısından şikayət edir;
- Yüksək səslə danışır və televizorun səsini qaldırır.

***Müəllim üçün tövsiyələr:***

- Deyilənlərin eşidilməsini yaxşılaşdırmaq üçün vizual köməkçi vasitələrdən istifadə etmək;
- Vacib təlimat və ya açar sözləri xüsusilə vurğulamaq;
- Yeni mövzu ilə tanış etmək məqsədilə uşaqları bu barədə öncədən məlumatlandırmaq;
- Yeni sözləri yazı lövhəsində yazmaq;
- Öyrənmədə çətinliyi olan uşağın parta yoldaşına dostunun məlumatı və təlimatı başa düşdüyünü yoxlamasını tapşırmaq;
- Anlaşılmayan söz və söz birləşmələrini təkrarlamaq, həmçinin izah etmək;
- Şifahi məşğələlərdə müzakirənin çox sürətli olmamasına əmin olmaq;
- Digər uşaqlar suallara cavab verəndə, onların cavablarını təkrarlamaq;
- Uşaqların dinləyərkən sizin üzünüzü gördüklərinə əmin olmaq;
- Təlimat verərkən sinifdə var-gəl etməmək;
- Sinifdə mümkün qədər sakitlik yaratmaq;
- Qeydləri şifahi verməkdən çəkinmək;
- Uşağın eşitmə aparatı taxmasına əmin olmaq (ehtiyacı olarsa);
- Həyat üçün nəzərdə tutulan oyunlarda əlilliyi olan uşaqların tam və ən əsası, təhlükəsiz iştirakını təmin etmək.



## 5. Görmə əlilliyi olan uşaq

Görmə əlilliyi olan uşaqların görmə çətinliyi müxtəlif dərəcədə olur. Ümumiyyətlə, ağır dərəcədə görmə əlilliyi olan uşaqlar xüsusi məktəblərdə təhsil alırlar. Nisbətən yüngül görmə əlilliyi olan uşaqlar digər uşaqlarla eyni sinfi paylaşırlar və dəstəklə təhsil ala bilirlər.

***Görmə əlilliyi olan uşaqların xüsusiyyətləri:***

- Müxtəlif əşyalara toxunaraq sərbəst gəzəndə çətinlik çəkə bilərlər;
- Göz-əl koordinasiyası zəif olur, yazısı səliqəsiz ola bilər;
- Başını əyir, kitabı gözlərinə çox yaxın tutur;
- Bir gözünü yuma, qırpa bilər, gözlərini çəpləşdirə bilər;
- Tez-tez baş ağrısı və baş fırlanmasından şikayətlənir;
- Gözlərini ovxalaya bilər, qırmızı göz qapaqları və gözü sulu olur;
- Yazı taxtasını görməkdə çətinlik çəkir;
- Digər uşaqlara nisbətən tez yorulurlar.



***Müəllim üçün tövsiyələr:***

- Uşağı həkim tərfindən təyin olunan eynəyini taxmasına təşviq etmək;
- Uşağın sinif otağında daha düzgün yerdə oturmasına əmin olmaq: orta sıra, ön partada;
- Sinif otağının kifayət qədər yaxşı işıqlandırılmasına əmin olmaq;
- Uşağın stol və ya partasına hər hansı düşən parıltılı işığı uzaqlaşdırmaq;
- Sinif mühitinin uyğun tərtibatına əmin olmaq;
- Çap hərflərin daha böyük ölçüdə olmasına əmin olmaq;
- Əyani vəsaitlərdə kontrast rənglərin işlənməsinə diqqət yetirmək, məsələn ağ və qara;
- Əyani vəsaitlərin izahlı olmasına əmin olmaq;
- Praktiki təcrübələrə üstünlük vermək;
- Tapşırıqların tamamlanması üçün vaxt vermək və uşağın yorulmaması üçün istirahət vaxtları vermək.

## 6. Fiziki əlilliyi olan uşaq

Fiziki əlilliyi olan uşaqlar müxtəlif xarici bədən üzvlərində və səhhətində problemlər olur. Bu fiziki əlilliyə əqli əlillik də əlavə olunduqda, həmin uşaqlar artıq xüsusi məktəblərdə təhsil alırlar. Lakin əgər uşaqların sırf xarici orqanlarında əlilliyi olarsa, onlar əlilliyi olmayan digər uşaqlarla eyni sinfi bölüşə bilərlər.

***Fiziki əlilliyi olan uşaqların xüsusiyyətləri:***

- Qeyri-adi yeriş, qaçış, tullanmaqda problemlər;
- Düzgün olmayan duruş və oturmaq, zəif göz-əl koordinasıyası, göz-ayaq koordinasıyası;
- Kəskin hərəkətlər, qıcolmalar;
- Sümük və ya oynaqlarda deformasiya, şiş oynaqlar;
- Çətin nəfəs alma və ya tez yorulmaq.

***Müəllim üçün tövsiyələr:***

- Fövqaladə hal üçün plan hazırlamaq;
- Uşağın ehtiyacı olan köməkçi vasitələrin olmasına əmin olmaq;
- Məktəb və sinifdə uşağın hərəkəti üçün pandus, ayaqyolunda uyğun dəstəklərin olmasına əmin olmaq;
- Uşağın görməsi üçün onun rahat və uyğun şəkildə oturmasına əmin olmaq;
- Lazım olduğu halda oturma vəziyyətinin dəyişməsi üçün imkanlar yaratmaq;
- İdman məşğələlərində uşağın iştirak etməsi üçün müəyyən fiziki hərəkətlərdə dəyişikliklər etmək;
- Tapşırıqları bitirmək üçün vaxt vermək və yorulmaması üçün fasilələrlə təmin etmək;
- Uşağın müvafiq müalicə alması üçün şərait yaratmaq.

## 7. Kəllə-beyin travmalı uşaq

Kəllə-beyin travması beynin zədələnməsi nəticəsində yaranır. Zədələnmənin dərəcəsindən asılı olaraq, həmin uşaqların tibbi, fiziki və öyrənmə problemləri olur. Onlar daha tez yorulur, baş ağrıları olur, əsəbi olurlar.

***Kəllə-beyin travmalı uşaqların xüsusiyyətləri:***

- Sadə təlimatları yadında saxlamaq, yeni məzmun öyrənməkdə, gündən-günə məlumatı yadda saxlamaq, diqqət və konsentrasiyada problemlər;
- Tapşırığı necə başlamaqda çətinlik, fəaliyyətlər dəyişərkən çaşqınlıq, vaxtın idarə olunması və ya öz stolunun səliqəyə salınmasındakı problemləri və çətin tapşırıq olanda dərhal geri çəkilmə;
- Sosial bacarıqlar ilə bağlı problemlər - kömək üçün necə müraciət etməkdə çətinliklər, dəyişkən əhval-ruhiyyə, aqqressivlik.

***Müəllim üçün tövsiyələr:***

- Öz-özü ilə danışmağı, müzakirəni, sual verməyi, refleksiyanı öyrətmək;
- Yaddaş üçün bəzi tapşırıqlar – mnemonika, vizualizasiya, məşq, məzmunu saxlamaqla məlumatı başqa cür demək;
- Tapşırığı kiçik hissələr bölmək və uşağın sürətinə uyğunlaşdırmaq;
- Uşağa kömək üçün müxtəlif köməkçi vasitələrdən istifadə etmək;
- Oxuyub-anlama üçün sual və tapşırıqları gözdən keçirmək və digər vasitələrdən istifadə etmək;
- Müvafiq yazı, qeyd-götürmək bacarığını öyrətmək;
- Uşağın sosial bacarıqlarında güclü və zəif tərəfləri diqqətdə saxlamaq;
- Sosial bacarıqları öyrətmək üçün rollu oyunlardan istifadə etmək;
- Dəyişkən fəaliyyətə tədricən öyrətmək;
- Tapşırıqların tamamlanması və təşkilatçılıq bacarıqlarına diqqət etmək;
- Valideyn və digər mütəxəssislərlə əmədaşlıq etmək.

**8. Sosial, emosional və davranış çətinlikləri olan uşaq**

Bura emosional, davranış pozğunluğu, diqqət-çatışmazlığı, hiperaktivlik, tabe olmama sindromu, obsessiv-kompulsiv pozğunluq, təşviş pozuntusu, depressiya və bipolyar pozuntu (sayıqlama) aiddir. Bir çox uşaqda bu problemlərin bir neçəsi ola bilər, məsələn, hiperaktivlik və diqqət çatızmazlığı, davranış pozuntusu. Bu problemlər uşaqların öyrənməsinə təsir edir.

***Sosial, emosional və davranış çətinlikləri olan uşaqların xüsusiyyətləri:***

- Sinifdəki digər uşaqlara mane olur;
- Digər uşaqlar və böyüklərlə problemləri olur;
- Diqqət və onun cəmləşdirilməsi problem olur;
- Təlimata tabe olmur və hər şeyi dağıda bilərlər.

***Müəllim üçün tövsiyələr:***

- Davranışı idarə etmək üçün fərdi təlim planı hazırlamaq;
- Nümunəvi davranışları mükafatlandırmaq – xal, ulduz və digər vasitələrdən istifadə etmək;
- Təsirli "cəza" vasitələrindən istifadə etmək, məsələn, mükafat verməmək;
- Sinfi idarə etmək üçün strukturlu yanaşmadan (məs., sinif qaydaları) istifadə etmək;
- Uşaq/uşaqların uğurla edə biləcəyi tapşırıqların verilməsinə əmin olmaq;
- Uşaqlar tərəfindən yaradılmış sinif qaydalarından istifadə etmək;
- Bütün uşaqlar üçün yararlı olan sinif otağı mühitini yaratmaq;
- Səbrli olmaq;
- Məşğələdən sonra davranışından narazı qaldığınız uşaqlarla fərdi görüşmək və arzuolunmaz davranışı onunla müzakirə etmək;
- Təhsil müəssisəsində və evdə problem olan uşaqlara qulaq asmaq üçün vaxt ayırmaq;
- Davranışlarını korrektə etmək üçün uşaqlara hədəflər qoymaq;
- Davranışın sistemli idarə olunması üçün valideynlərlə əməkdaşlıq etmək;
- Təhsil müəssisəsində davranışla bağlı təlimatı həyata keçirtmək üçün digər əməkdaşlarla birgə çalışmaq (öncədən planlama, uşaqla söhbət, yaxşı davranışları təşviq etmək, ailə ilə əməkdaşlıq və s.).

## 9. İstedadlı uşaqlar



İstedadlı uşaqlar intellektual baxımdan yaşıdlarından çox fərqlənən uşaqlardır. Onlar əslində əlilliyi olan uşaqlara aid deyil, potensialları böyük olmasına baxmayaraq akademik göstəriciləri orta səviyyədə ola bilər, digərləri üçün məktəb darıxdırıcı olduğuna və ya həmyaşıdları ilə çətin uyuşduğuna görə davranış pozuntuları ola bilər.

***Istedadlı uşaqların xüsusiyyətləri:***

- Tapşırıqları tez bitirir və məktəb darıxdırıcı olur;
- Hər şeylə maraqlanır, sərgüzəşt axtarır;
- Öz davranışlarını tənzimləyir və müstəqil olur;
- Qeyri-adi bilik və bacarıq nümayiş etdirir;
- Erkən yaşda mücərrəd düşünə bilir;
- Yüksək səviyyədə arqumentlər və problemin həlli kimi bacarıqları olur;
- Özündən böyük uşaq və böyüklərə meylli olurlar.

***Müəllim üçün tövsiyələr:***

- Uşağın öyrənmə surətinə uyğunlaşmaq – nə çox ləng, nə də çox surətli;
- Proqramı sürətlə keçməkdənsə, uşağın biliklərini genişləndirmək haqqında düşünmək;
- Daha yaxşı anlamaq üçün suallardan istifadə etmək;
- Müxtəlif inkişaf səviyyəsinə uyğun tapşırıqlar tərtib etmək;
- Bəzi tapşırıqların çətinlik səviyyəsini artırmaq;
- Uşaqlar arasında əməkdaşlıq, bir-birinə kömək, sosial bacarıqların inkişafını təşviq etdirmək;
- Öyrənmə bacarığını və müstəqil öyrənməni təşviq etmək;
- Müsabiqələr təşkil etmək;

- Əlavə fəaliyyətlərə cəlb olunmasına təşviq etmək;
- Güclü və zəif tərəfləri diqqətdə saxlamaq;
- Sistemli yanaşma üçün valideynlə yaxından əməkdaşlıq etmək.

Yuxarıda deyilənləri ümumiləşdirərək öyrənmə çətinliyi olan uşaqlarla işləmək üçün müəllimlərə aşağıdakılar tövsiyə olunur:

- Uşağın real inkişaf səviyyəsini qiymətləndirin və məşğələni buna uyğunlaşdırın;
- Mütəxəssis, valideyn, digər əməkdaşlarla işləyərək, müsbət nəticə göstərmiş strategiyalardan istifadə edin;
- Uşağın güclü tərəflərini diqqətdə saxlayıb, özünə inamı yaradın;
- Fərdi təlim planı və növbəti mərhələyə keçid planını diqqət mərkəzində saxlayın;
- Uşağın müstəqilliyini təmin edən bacarıqlara üstünlük verin;
- Valideynlər və digər mütəxəssislərlə əmədaşlıq edin.



# II FƏSİL. Uşaqyönlü pedaqogika



**2.1. Uşaqyönlü pedaqogikanın əsasları**

Əlilliyi olan uşaqların 60%-i heç bir uyğunlaşma (adaptasiya) olmadan, 80-90%-i cüzi uyğunlaşma ilə (məs: tədris strategiyası təhsili, uşaq-uşağa dəstək və ətraf mühitə uyğunlaşma) məktəbəqədər və ümumi təhsil müəssisələrində" təhsil ala bilərlər. Əlilliyi olan uşaqlardan hamısının eyni ehtiyaclara malik olması arqumentini dəstəkləyən heç bir fakt yoxdur. Həmçinin, əlilliyi olan uşaqlar üçün adi təlim strategiyasından kəskin fərqlənən xüsusi strategiyaların tələb olunmasına dair də əsaslı bir dəlil yoxdur. Bəzi vaxtlarda uşaqlardan bəziləri üçün kurikuluma düzəliş edilməli olur və ünsiyyət rejimi fərqli ola bilər. Lakin bütün uşaqların eyni kurikulumdan yararlanmaq və eyni sosial konstruktiv yanaşmalarla öyrənmək hüququ vardır.

İxtisaslaşmış xidmətlər və resurslar hər zaman xüsusi əhəmiyyət daşıyacaq, lakin onlar adi müəllimlərə və əlilliyi olan uşaqların ayrı-seçkiliyə məruz qalmadan ümumi mühitdə iştirak etmələrinə dəstək göstərmək üçün inklüziv hüquqlara əsaslanan universal prinsiplər əsasında hazırlanmalıdır. Müəllimlər üçün həmin siniflərdə əlilliyi olan uşaqların ehtiyaclarını dəstəkləyən əsas amil bütün uşaqların ümumi və xüsusi ehtiyaclarına cavab vermək və uşaqyönlü olmaqdır.

İnklüziv təhsilin həyata keçirilməsində uşaqyönlü pedaqogika vacibdir. Bütün müəllimlər öz məktəblərində çox fərqli təməl bilikləri, bacarıqları, maraqları və öyrənmə ehtiyacları olan uşaqlar ilə görüşürlər. Əlilliyi olan uşaqların tədrisinə dair xüsusi pedaqogika olmadığından inklüziv mühitdə müəllimlər bütün uşaqların ehtiyaclarını qarşılamaq üçün uşaqyönlü pedaqogikadan istifadə edirlər. Daha ənənəvi mühitdə və ya daha çox müəllimyönlü pedaqogikada müəllim bütün sinfin qarşısında durur, stolları sıra və cərgə ilə düzür, uşaqlara bütün bilikləri ötürür və onların cavablarının doğru və ya yanlış olmasını söyləyir. Yaxşı və göstəriş verən müəllim belə olmalıdır - bizə öyrədilən budur. Uşaqyönlü pedaqogika uşaqların ön plana qoymaq və onların ehtiyaclarını, bacarıqlarını, maraqlarını və öyrənmə tərzlərini diqqət mərkəzində saxlamaq və müəllimin öyrənmə prosesində köməkçi rolunu oynaması deməkdir. Uşaqyönlü yanaşmada effektivlik üçün ən vacibi **müəllimin davranışıdır**. Bu üsulla müəllim sinifin qarşısında durur, sinifdəki resurslardan istifadə edir və bu yolla o, uşaqlar ilə ünsiyyət qurur və uşaqların öyrəndikləri bilikləri qiymətləndirir.

**2.2. Uşaqyönlü pedaqogikanın əsas xüsusiyyətləri**

Uşaqyönlü pedaqogikanın aşağıdakı 5 əsas xüsusiyyəti var:

***1. Faydalı təlim imkanları***

- Uşaqlardan nə gözlədiyinizi və məşğələnizin məqsədini izah edin;
- Uşaqların artıq mənimsədiyi biliklərə əsaslanın;
- Uşaqların gündəlik təcrübələrinə əsaslanın;
- Evdə və məktəbdə baş verənlər arasında əlaqə qurun;
- Gündəlik həyatda öyrəndiklərini təcrübədən keçirmək üçün uşaqlara imkanlar verin;
- Uşaqlara biliklərini nümayiş etdirmək və məşğələyə mühüm töhfələr vermək üçün imkanlar təqdim edin.

*2. Bütün uşaqların müxtəlif yollarla öyrəndiklərinin qəbul edilməsi*



Bütün uşaqlar müxtəlif yollarla, müxtəlif anlarda öyrənirlər:

- Şifahi: danışılan və ya yazılan sözlər ilə öyrənmə (yaddaş, xatırlama);
- Məntiqi: mülahizələr (rəqəmlər, nümunələr, ölçülər) və hesablamalar vasitəsilə öyrənmə;
- Vizual (əyani/görmə): əyani vəsaitlər ilə öyrənmə (xəritələr, diaqramlar, şəkillər);
- Bədən: hərəkət vasitəsilə öyrənmək (oyun, dram);
- Musiqi: səslər (qafiyə, ritm, təkrarlama) vasitəsilə öyrənmə;
- Şəxsiyyətlərarası: qrup işi vasitəsilə öyrənmə (sosial əlaqələr);
- Şəxsiyyətdaxili: özü təhlil edərək öyrənmə (fərdi iş, fikrini cəmləmək).

Uşaqların öyrənmə üslubunu bilmək üçün müşahidə və təhlil zəruridir. Eyni kurikulum məzmununun tədrisi üçün müxtəlif üsul və strategiyalardan istifadə edilməli və fəaliyyətlərin hamı üçün mənimsənilən olmasını təmin etmək məqsədilə tənzimləmələr edilməlidir.

*3. Birgə öyrənmə*

- Uşqlara qruplar şəklində öyrənmə və işləmək üçün imkanlar yaradın;
- Bacarıqlarına görə qruplaşdırmayın, fərqlilik öyrənmə təcrübəsini zənginləşdirir; fikirləşib cavab vermələri üçün sinifdə qrup işi ilə bağlı təcrübələri müzakirə etməyə və düşünməyə müəyyən vaxt sərf edin.

Birgə öyrənmə daxilində uşaqlar ümumi hədəflər naminə çalışmaqla məsuliyyəti və resursları bölüşürlər. Birgə qrup işinin uşaqların əsas anlayışları yaxşı qavramasında və işə və bir-birinə qarşı müsbət münasibətlərin qurulmasına güclü təsiri ola bilər. İnklüziv siniflərdə, xüsusilə əlilliyi olan uşaqları öyrədərkən qrup işinin səmərəliliyini təmin etmək üçün yaxşı olar ki, bacarıqların səviyyələrinə görə qruplaşdırılma aparılmasın. Əlilliyi olan bütün uşaqları bir qrupa yığmaq çox qürurqırıcı ola bilər və bu, uşaqlara əməkdaşlıq və öyrənmə üçün az imkanlar verir. Müxtəlif təməl biliklərə malik uşaqlardan ibarət qrup yaratmaq hər kəs üçün daha öyrədici imkanları təmin edir.

Uşaqların hər biri müəyyən bir vəzifəni icra edə bilər. Vəzifələrin dəyişməsini, məsələn, hər kəsin növbə ilə qrup rəhbəri olmasını təmin edin. Həmçinin qrup işində əlilliyi olan uşaqların əsas və həlledici rol almaları mühümdür. Adətən qrup işinə başlamazdan öncə qrup qaydalarının qoyulması zəruri ola bilər.

*4. Cəlbedici və əlçatan təlim məkanları*

Sinif və məktəb mühiti uşaqyönlü təlim və tədrisi dəstəkləyə bilər. Hər kəs üçün cəlbedici və əlçatan təlim məkanları yaratmaq zəruridir, amma bu son hədəf deyil, əsas məqsəd: keyfiyyətli təhsil almaq bütün uşaqların hüququdur – bu hüququn dəyərləndirildiyi və həmin hüquqa əsaslanan uşaqyönlü təlim yanaşmasının həyata keçirilməsidir. Uşaqyönlü təlim məkanlarının bəzi xüsusiyyətləri:



• Fiziki məkan: bütün uşaqların sinif və məktəb daxilində, ətrafda sərbəst hərəkət edə bilmələri, fərdi və qrup şəklində işləmələri və lazım olduqda öyrənmə vasitələrinə yanaşmalarının təmin edilməsi

• Öyrənmə guşələri: uşaqların müstəqil və ya qrup şəklində öz iradələri ilə öyrənmək üçün sinifinizdə müxtəlif öyrənmə guşələri qurun. Hər bir guşədə resurslar və təlimatlar yerləşdirilir. Həmin guşələr uşaqlara əvvəl öyrəndiklərini zənginləşdirmək, yeni bacarıqlarını təcrübədə tətbiq etmək və yeni anlayışları kəşf etmək üçün şans verir. Uşaqlar öyrənmə guşələrinin planlaşdırılmasında, təşkilində və idarəsində iştirak edə bilər.

• Təqdimat yeri: sinfinizdə bütün uşaqların işlərini nümayiş etdirə biləcəyiniz və fəaliyyətləri haqqında rəy verə biləcəyiniz təqdimat lövhəsi hazırlayın. Təqdimat lövhəsini tez-tez dəyişin və onu tədris vasitəsi kimi istifadə edin.

• Sinif kitabxanası: kitablar çox səmərəli tədris vasitələridir və kitablar, yeni anlayışları öyrənməyə, dillərini inkişaf etdirməyə və məlumatı başa düşməkdə uşaqlara kömək edir. Yerli kitablar və ya uşaqların özlərinin hazırladıqları kitablar da bahalı uşaq kitabları kimi səmərəli ola bilər.

5. ***Formativ qiymətləndirmə*** barədə səhifə 40-da daha ətraflı məlumat verilmişdir.

# III FƏSİL. Universal öyrənmə dizaynı

### 3.1. Universal Öyrənmə Dizaynı və onun əsas prinsipləri

BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya əsasən, Universal dizayn - əşya, şərait, proqramlar və xidmətlərin adaptasiya və ya xüsusi dizayn zərurəti olmadan bütün insanlar üçün istifadəyə maksimum dərəcədə yararlı dizaynıdır. Universal Öyrənmə Dizaynının (UÖD) məqsədi – öyrənmənin bütün uşaqlara əlçatan olması, uşaqların öyrənmə prosesində özlərini səriştəli, uğurlu, təhlükəsiz hiss etməsi, bütün uşaqlar üçün özlərini xoşbəxt hiss etdikləri mühitin yaradılması və saxlanılmasıdır. UÖD yanaşması ona görə əhəmiyyətlidir ki, bütün öyrənənləri nəzərə almağa və məşğələni onların hamısı üçün planlamağa kömək edir. UÖD prinsiplərinə riayət etmək üçün xüsusi alətlər və ya texnologiyalara ehtiyac yoxdur. Uşaqlar sadəcə olaraq mövcud alət və resurslardan özləri seçim edirlər. Onlar bu vasitələrdən müxtəlif cür istifadə edirlər. UÖD nəyisə dəyişmək yox, əksinə öyrənmə mühitinin yaradılmasına xidmət edir. O, öyrənməyə mane olan səddləri aradan qaldırmağa və ya azaltmağa xidmət edir. Bu maneələri aradan qaldırmağın yolu isə öyrənmə məqsədinə çatmaq üçün çevikliyə yönəlmiş öyrənmə mühiti yaratmaqdır.

***UÖD aşağıdakılara əsaslanır:***

- Bərabər istifadə – müxtəlif əlilliyi olan uşaqlar istifadə edə bilər
- Sadə istifadəsi – bilik və bacarıq səviyyəsindən asılı olmayaraq asan istifadə
- Çevik istifadə – müxtəlif səviyyəli əlliliyi olan uşaqlar tərəfindən istifadə oluna bilər
- Kifayət qədər yer - ölçü və hərəkətdən asılı olmayaraq istifadə oluna bilər
- Səhvlərə fikir verməmək – səhvləri düzəltməyə imkan verən rəy bildirmək
- Minimum fiziki cəhd – fiziki hərəkət üçün rahatlıq
- Aydın ünsiyyət – müxtəlif əlilliyi olan uşaqlara əsas məlumatın əlçatan olması

***UÖD- ün əsas prinsipləri aşağıdakılardır:***

- Təqdimatın müxtəlif vasitələri: Məlumat və məzmunun müxtəlif vasitələrlə təqdim olunması
- Fəaliyyət və özünü ifadənin müxtəlif vasitələri: Uşaqlar öyrəndiklərini və bildiklərini rahat şəkildə müxtəlif vasitələrlə ifadə edirlər
- İştirakın/cəlb olunmanın müxtəlif vasitələri: Öyrənmək üçün uşaqların maraqları və motivasiyası



| İştirakın/ cəlb olunmanın müxtəlif vasitələri | |
|---|---|
| **Sinifdəki bütün uşaqları öyrənmə prosesinə necə cəlb etmək olar?**<br><br>- Hansı yollarla uşaqlara seçim və müstəqillik verilir?<br><br>- Bütün uşaqların ehtiyac və istəyinə uyğun olaraq öyrənməni necə uyğunlaşdıra bilərəm?<br><br>- Sinif otağı bütün uşaqların öyrənməsi üçün nə dərəcədə münasibdir? | **Nümunələr:**<br><br>- Uşaqların meyl və maraqları, ehtiyacları, güclü tərəflərini araşdırın.<br><br>- Əldə etdiyiniz məlumatları məşğələyə uyğunlaşdırın. Uşaqların öyrənmə müxtəlifliyini nəzərə alaraq belə tətbiq etmək olar: məs., tutaq ki, mövzu A hərfini öyrənməkidir. Bu mövzu, müəllimə qulaq asaraq, şəklə baxaraq, plastilindən düzəldilərək, özü yazaraq və s. üsullarla öyrənilə bilər.<br><br>- Məqsədə çatmaq üçün seçim imkanları verin<br><br>- Uşaqlara uyğun öyrənmə məqsədlərini aydın müəyyənləşdirin. |

| Müxtəlif təqdimat vasitələri | |
|---|---|
| **Bütün uşaqların anlaması üçün məlumatı necə təqdim edə bilərəm?**<br><br>- Mətnlərin, şəkillərin, cədvəlləri göstərə biləcəyim- bütün variantları nəzərə almışammı?<br><br>- Mətnlə işləmək üçün və ya dinləmək üçün ehtiyacı olan uşaqlara hansı imkanlar yaratmışam? | **Nümunələr:**<br><br>- Görməni asanlaşdırmaq üçün hərf və ya arxa fondakı rəngləri dəyişdirin<br><br>- Mətnlə birbaşa işləmək, audio kitab və ya yanında oturan uşağın oxuması kimi seçimləri təşkil edin |

| Fəaliyyət və özünü-ifadə üçün müxtəlif vasitələr | |
|---|---|
| - Uşaqların bildiklərini təqdim etmək üçün hansı vasitələri təklif edə bilərəm?<br><br>- Zaman və sürətlə bağlı çevikliyi nə vaxt tətbiq edə bilərəm?<br><br>- Uşağın bildiyini təqdim etməsi üçün qələm-kagızla bağlı tapşırıqla yanaşı digər hansı metodları nəzərə almışam? | **Nümunələr:**<br><br>- Öyrənmə məqsədinə çatmaq üçün uşaqlara kiçik tapşırıqları izləmək üçün təqvim, yoxlama vərəqi vermək olar.<br><br>- Uşaqlara bildiklərini ifadə etmək üçün müxtəlif formatlar təklif edin, məsələn: kiçik təqdimatlar, plakatlar |

| Təqdimatın müxtəlif vasitələri | Fəaliyyət və özünü ifadənin müxtəlif vasitələri | İştirak/cəlb olunmanın müxtəlif vasitələri |
|---|---|---|
| - Hekayədəki əsas hadisələri göstərən qrafik<br><br>- Dinləmək üçün səsli oxumaq<br><br>- Bəzi qruplarda müzakirələr<br><br>- Təcrübə | - Hekayənin nədən bəhs etdiyini göstərən kiçik video hazırlaya bilərlər<br><br>- 3 qatlı piroq (plastilindən, kağızdan) hazırlayıb onunla hekayənin əvvəli, ortası və sonluğunu ifadə edə bilər<br><br>- Oxuduqları hekayəni rollu oyunlarla göstərə bilərlər | - Uşaqlar seçdikləri kitabdakı hekayənin ardıcıllığını müəyyən edirlər.<br><br>- Uşaqlar oxuduqlarının rəsmini çəkə bilər. |

***Ailənin UÖD ilə bağlı məlumatlandırılması***

Ola bilər ki, ailələr, valideynlər UÖD ilə bağlı məlumatlı olamasın. Onların UÖD ilə bağlı çox sualları ola bilər. Onlaröyrənmə mühitinin uşaq üçün nə qədər faydalı olduğunu anlamaya bilərlər. UÖD ilə bağlı valideynləri maarifləndirə, valideynlərin başa düşəcəyi dildə sadə məqalə və ya buklet hazırlaya bilərsiniz. Ailələri inandırın ki, bütün uşaqlardan gözləntiniz yüksəkdir. Siz ailələrlə işləyərək həm uşaqların, həm də ailələrin maraqlarının təmin olacağını müzakirə edin.

### 3.2. Diferensiallaşdırma və fərdiləşmə

Diferensial təlim əhəmiyyətli hesab olunan, məzmunu müxtəlif öyrənmə və düşüncə tərzinə malik olan uşaqlara öyrətmək və mənimsəməni təmin etmək üçün tətbiq olunan təlim metodlarıdır. Təlimin diferensiallaşdırılması bütün uşaqların eyni olduğunu zənn edərək bütün sinfə ənənəvi təlimin əvəzinə, konkret uşağın və ya kiçik uşaq qrupunun təlim ehtiyaclarına diqqət yetirməkdir. Diferensial təlimi proses kimi başa düşmək lazımdır. Yəni, müəllim uşaqlar üçün maksimum səmərəli şərait yaratmaq istədikdə, daim təlimin diferensiallaşmasını nəzərdə saxlamalıdır.

Əlilliyi olan uşaqlar, adətən məktəbəqədər təhsil pilləsindən sonra təhsilini ibtidai təhsil səviyyəsində davam etdirmək və ya hər hansı bir işlə məşğul olmağa tam hazır olmurlar. Əlilliyi olmayan uşaqlardan fərqli olaraq, əlilliyi olan uşaqlar bilik və bacarıqlarını nümayiş etdirməkdə tez-tez çətinliklər çəkirlər, bu amillər yuxarıda qeyd etdiyimiz problemlərə səbəb olur. Tədqiqatlar göstərir ki, əlilliyi olan uşaqların məktəbdən sonrakı fəaliyyətləri, məhz, məktəbəqədər dövrdə və məktəb vaxtında öyrəndikləri bilik və bacarıqlardan, həmçinin formalaşmış vərdişlərdən əhəmiyyətli dərəcədə asılıdır. Təhsilin fərdiləşdirilməsi - hər bir uşağın fərdi xüsusiyyətlərinə əsaslanan təhsil fəaliyyətinin qurulmasına gətirib çıxarır. Təlimdə uyğunlaşdırma və dəyiş ikliklər uşaqların:

· Fərdi Təlim Planında nəzərdə tutulan məqsədlərinə nail olmalarına;
· kurikulum materialının mənimsənilməsinə və müəyyən uğur qazanmalarına;
· digər uşaqlarla birgə məşğələlərdə iştiraklarına yardım edir.

Beləliklə, müəllimlərin əlilliyi olan uşaqlar üçün təlimi diferensiallaşdırma bacarıqlarının yüksək olması uşaqların uğur əldə etmələrində əsas rol oynayır. Müəllimlər səmərəli uyğunlaşdırma, dəyişiklikləri həyata keçirə bilmək üçün əvvəlcə uşaqların uğur əldə edib-etməyəcəklərini müəyyənləşdirmələri üçün onların yerinə yetirəcəkləri tapşırıqları təhlil etməlidirlər.

***Diferensial təlimin 4 əsas prinsipi:***

1. Diferensial sinif çevikdir. Müəllim və uşaqlar başa düşür ki, hər bir uşağın və ümumilikdə, sinfin akademik uğurunu təmin edən qiymətləndirmə üsulları, uşaqların qruplaşdırılma yolları və müxtəlif materiallar var.

2. Təlimin diferensiallaşdırılması təlim prosesinə cəlb edilmiş uşaqların ehtiyaclarının cari qiymətləndirilməsindən irəli gəlir. Müəllimlər uşaqların ehtiyaclarını bildikdə, təlimi daha səmərəli təşkil edə bilirlər. İnklüziv müəllim uşağı daha yaxşı başa düşmək üçün onun dediyi və ya etdiyi hər bir şeyi faydalı məlumat kimi görür və məşğələni düzgün planlaşdırması üçün bu məlumatdan istifadə edir, nəticədə uşağın öyrənməsi üçün daha əlverişli şərait yaranır.

3. Bütün uşaqların müvafiq işi var. Müəllimin hədəfi uşağın məşğələ boyu məşğul olması və gördüyü işin maraqlı və öyrədici olmasını təmin etməkdir.

4. Təlimdə müəllimlər ilə uşaqlar əməkdaşdırlar. Müəllim təlim ehtiyaclarını qiymətləndirir, təlimdə fasilitatorluq edir, səmərəli planlaşdırma aparır, uşaqları təhlil edir və davamlı olaraq sinif haqqında qərarların qəbul olunmasında onların rəyini nəzərə alır. Nəticədə, uşaqlar daha müstəqil olurlar.

***Diferensial məzmun:***

- Uşaqların yeni anlayışları başa düşməsi üçün obyektlərdən istifadə edin;

- Mətnləri bir neçə oxu səviyyəsində tərtib edin;

- Mətn materialları ilə işləyən uşaqları dəstəkləmək və cəlb etmək üçün oxu prosesinə sinif yoldaşlarını cəlb edin;

- Əlavə təqdimata ehtiyacı olan uşaqlara mövzunu yenidən izah edin;

- Müxtəlif uşaqlara əsas anlayışları aşılama üsulları kimi mətn, səs qeydiyyatı aparatları, poster və videolardan istifadə edin.



***Diferensial fəaliyyət:***

Uşaqlarla müxtəlif öyrənmə tərzlərinə əsasən çətinlik səviyyələri (məsələn, variant 1 asan, variant 2 bir az çətin və variant 3 isə çox çətin) olan təlim fəaliyyəti qurun. Uşaqların fərqli maraqlarına əsaslanan müxtəlif variantları təmin etməklə fəaliyyəti fərqləndirmək mümkündür. Hər bir fəaliyyətdə müəllim tərəfindən dəstək verilə yaxud uşaqlar bir-birinə dəstək verə bilər.

***Diferensial tapşırıqlar:***

- Əsas təlim məqsədlərinin müəyyənləşdirilməsində uşaqların iştirak etməsinə imkan yaradın;

- Uşaqları öyrəndiklərini fərqli üsullarla ifadə etməyə təşviq edin;

- Müxtəlif iş üslublarına şərait yaradın (məsələn, tapşırığı bitirmək üçün tək və ya qrupun tərkibində işləmək);

- Tapşırıqları hazırlamaq üçün müxtəlif növ resurslardan istifadəni təmin edin edin;

- Müxtəlif qiymətləndirmə metodlarından geniş şəkildə istifadə edin. Sinifdə bütün uşaqların təlimə cəlb olunması, iştirakı və nailiyyət əldə etməsi üçün müxtəlif təlim üsulları var.

# IV FƏSİL. Universal skrininq



## 4.1. Universal skrininqin mahiyyəti

***Skrininq nədir və hansı məqsədlə keçirilir?*** Skrininq (ing. universal – "hər kəsi əhatə edən", screening - "yoxlama") – təlimdə uğur qazanmaq üçün əlavə dəstəyə ehtiyacı olan hər bir uşağın inkişaf səviyyəsini və öyrənmədə çətinliklərini müəyyənləşdirmək üçün təşkil olunmuş ölçmə/qiymətləndirmə prosesidir. Başqa sözlə, universal skrininq gələcəkdə akademik və davranış çətinlikləri yaşaya biləcək uşaqların müəyyən edilməsi üçün istifadə olunan qısa ölçmə prosesidir. Onun əsas məqsədi inklüziv təhsilə cəlb olunmuş uşaqların əlavə təhsil ehtiyaclarını müəyyən etmək və onlar üçün daha yaxşı öyrənmə imkanları yaratmaqdır. Müxtəlif öyrənmə çətinlikləri, sosial-emosional və davranış problemləri gələcək təlim prosesində çətinliklərə səbəb ola biləcəyi üçün təlimə başlamamışdan öncə erkən skrininqin edilməsi mütləqdir. Tədqiqatlar göstərir ki, uşaqların təhsil ehtiyaclarının erkən müəyyən edilməsi və onların fərdi ehtiyaclarına uyğunlaşdırılan təhsil mühitinin formalaşdırılması və Fərdi Təlim Planının hazırlanması, onların akademik nailiyyətlərinin yaxşılaşması ehtimalını yüksəkdir. Skrininq məlumatverici xarakter daşıyır və Fərdi Təlim Planı uşaqların təlim ehtiyaclarına və inkişaf səviyyələrinə uyğunlaşdırmaqda müəllimə kömək edir.

***Skrininq və qiymətləndirmə: ortaq və fərqli cəhətləri nədir?*** Mahiyyətcə oxşar olmalarına baxmayaraq (hər iki halda inkişaf səviyyəsi və bacarıqlar ölçülür), skrininqi tibbi və psixo-pedaqoji qiymətləndirmədən ayırmaq vacibdir. Belə ki, tibbi və psixo-pedaqoji qiymətləndirmədən fərqli olaraq, skrininqin nəticəsində uşağın yalnız öyrənmə bacarıqları (məsələn, oxu və ya riyaziyyat) və psixi inkişafının səviyyəsi müəyyən edilir, lakin ona müxtəlif inkişaf ləngimələri diaqnozları qoyulmur. Skrininq və qiymətləndirmənin əsas fərqləri aşağıdakı kimidir:

1. Skrininq diaqnoz qoymaq məqsədilə deyil, uşaqların cari ehtiyaclarının müəyyən edilməsi, həmin ehtiyaclara uyğunlaşdırılmış dəstəyin verilməsi və ya ehtiyac olduğu zaman daha dərin qiymətləndirməyə yönləndirilməsini təmin etmək üçün istifadə edilir;

2. Skriniq alətləri qiymətləndirmə alətlərindən fərqli olaraq, adətən daha qısa olur və onun keçirilməsi daha az zaman tələb edir;

3. Əksər skrininq alətlərinin tətbiqi xüsusi təlimatlandırma tələb etmir və psixoloq tərəfindən keçirilə bilər;

4. Skrininqdən fərqli olaraq, qiymətləndirmə alətləri hər bir inkişaf sahəsinin daha dərin və hərtərəfli dəyərləndirməsini nəzərdə tutur;

5. Qiymətləndirmə daha çox zaman tələb edən və uzun bir prosesdir. Bir qayda olaraq, qiymətləndirmə Psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən aparılır və psixi sağlamlıq, uşaq inkişafı, xüsusi təhsil, nitq inkişafı və s. istiqamətlər üzrə mütəxəssislərin iştirakını tələb edir;

6. Qiymətləndirmə alətlərinin məqsədi uşaqların inkişafı ilə bağlı yekun diaqnozu müəyyən etməkdir. Qiymətləndirmə nəticələrindən gələcək müalicənin və təlim prosesinin planlaşdırılmasında istifadə edilir.

***Skrininq kimlər tərəfindən və hansı sıxlıqda keçirilməlidir?*** Uşağın inkişaf səviyyəsi və öyrənmədə çətinliklərini müəyyən etmək məqsədi ilə keçirildiyi üçün, skrininq prosesi psixoloq tərəfindən aparılmalıdır, lakin müəllimin də iştirakı arzuolunandır. İlkin skrininq yeni tədris ili başlamamışdan öncə keçirilməlidir. İlkin skrininq nəticəsinə əsasən Fərdi Təlim Planı hazırlanır. Daha sonra uşağın inkişafındakı irəliləyişi müəyyən etmək üçün hər 3-6 aydan bir keçirilə bilər. Skrininqin belə sıxlıqda keçirilməsi müəllimə uşaq inkişafında müsbət və ya mənfi dinamikanın olub-olmadığını müəyyən etməyə və müvafiq olaraq ilin əvvəlində tərtib edilən Fərdi Təlim Planına əldə olunmuş nəticələrə uyğun dəyişikliklər etməyə kömək edəcək.

***Skrininq zamanı kimlər iştirak etməlidir və necə aparılmalıdır?*** Tətbiq olunan alətin təlimatından asılı olaraq, skrininq prosesi uşaqların birbaşa qiymətləndirilməsi, müşahidə və ya valideynlərlə sorğu vasitəsi ilə keçirilə bilər. Əksər skrininq alətlərində motor bacarıqları, nitq bacarıqları (nitiqin başa düşülməsi və ifadə edilməsi), diqqət və hafizə, oxu və riyazi bacarıqlar uşaqların birbaşa qiymətləndirilməsi vasitəsi ilə keçirilir. Sosial-emosional və özünəxidmət bacarıqları isə valideynlərlə sorğu vasitəsi ilə dəyərləndirilə bilər. Skrininq əlilliyi olan məktəbəqədər yaşlı uşaqları əhatə etdiyi üçün qiymətləndirmə prosesində skrininqi keçirən mütəxəssislərlə (məktəb psixoloqu və müəllim) yanaşı, valideynin və ya uşağın tanıdığı hər hansısa bir şəxsin iştirakı da tövsiyə olunur. Bu, uşaqların skrininq zamanı yaşadıqları təşviş və narahatlıq hissini aradan qaldırmağa kömək edəcək. Lakin valideynlərin skrininq prosesinə müdaxilə etmələrinə qəti şəkildə imkan vermək və onlardan skrininq zamanı uşağa heç bir əlavə dəstək və ya kömək etmələrinə icazə vermək olmaz.

### 4.2. Skrininqin keçirilməsində etik məsələlər

Skrininq prosesini keçirən şəxs (psixoloq və müəllim) üçün bir sıra etik davranışlarla bağlı beynəlxalq standartlar və qaydalar mövcuddur. Aşağıda Amerika Psixoloji Assosiasiyası tərəfindən tərtib edilən və beynəlxalq təcrübədə tətbiq edilən tələblər qeyd edilib. Qeyd edək ki, sadalanan etik davranış qaydaları Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli "Psixoloji yardım haqqında" qanununda da öz əksini tapmışdır:

1. *Faydalılıq və ya məsuliyyətli yanaşma.* Bu prinsip təhsil işçilərinin uşaqlara daha çox fayda verə biləcəyi və ya heç olmasa, heç bir zərər verməməsini nəzərdə tutur. Bu o deməkdir ki, təhsil mütəxəssisləri xidmət etdikləri məktəbəqədər yaşlı uşaqların maraqlarına uyğun hərəkət etməlidirlər. Uşaqların qiymətləndirilməsi və skrininqi özünəməxsus sosial və təhsil nəticələri olan bir sosial aktdır. Belə ki, skrininq və ya qiymətləndirmə zamanı əldə olunan məlumatlar uşaq haqqında, onun gələcək təhsil şəraiti və imkanları haqqında qərar qəbul etmək üçün istifadə edilir və müvafiq olaraq, bu qərarlar bir insanın həyat imkanlarına əhəmiyyətli dərəcədə təsir edir. Skrininq keçirən şəxs skrininq fəaliyyətinin nəticələri üçün məsuliyyətini qəbul etməli və prosesin lazımi şəkildə icrası üçün səy göstərməlidir.

2. *Peşəkar səriştənin sərhədlərinin tanınması*. Skrininq prosesinə cəlb olunan və qərar vermək məsuliyyəti həvalə olunan şəxslər fərqli ixtisaslara (psixoloq və ya müəllim) malikdirlər. Bu səbəbdən onlar öz ixtisasları və səriştələri ilə bağlı məhdudiyyətləri nəzərə almalı, səlahiyyətləri olmayan istiqamətlərdə fəaliyyət göstərməkdən, nəticə çıxartmaqdan və qərar verməkdən çəkinməlidirlər.

3. *İnsanların ləyaqətinə hörmət*. Bu prinsip təhsil işçilərinin uşaqların ləyaqətinə, şəxsi və məxfilik hüquqlarına hörmət etmələrini, ədalətli və ayrıseçkilik etmədən skrininqin həyata keçirilməsini nəzərdə tutur.

4. *Məxfilik.* Skrininq keçirən mütəxəssislər sonda uşaqlar haqqında fərdi məlumatlar əldə edirlər. Bu cür məlumatlar ciddi məxfilik şəraitində saxlanılmalıdır. Bir çox peşə təşkilatlarının ümumi etik prinsipinə əsasən, məxfilik yalnız bir şəxs və ya cəmiyyət üçün açıq və qaçılmaz təhlükə olduqda pozula bilər. Uşaqların test nəticələri digər işçilərlə qeyri-rəsmi şəkildə müzakirə edilməməlidir. Testlərlə bağlı rəsmi hesabatlar yalnız test edilmiş uşaqların və ya onların valideynlərinin və ya qəyyumlarının icazəsi ilə verilməlidir.

5. *Skrininq zamanı ədalətli və bərabər yanaşma.* Skrininq keçirən şəxslər testlərin ədalətli və qərəz siz şəkildə tətbiqinə və təhlilinə cavabdehdirlər. Skrininq alətləri uşaqların bacarıq və qabiliyyətlərini qiymətləndirməli, irqi və mədəni cəhətdən diskriminasiya etməməli və uşaqların ana dilində və ya ilkin ünsiyyət imkanları çərçivəsində aparılmalıdır.

6. *Skrininq zamanı uşaqların təhlükəsizliyinin təmin edilməsi*. Skrininq keçirən şəxslər qiymətləndirmə zamanı uşaqların fiziki və psixoloji təhlükəsizliyini qorumalıdırlar.

***Skrininqin əhatə etdiyi sahələr.*** Skrininqin əsas məqsədi uşaqların sağlamlıq və psixi inkişaf səviyyəsini, öyrənmədə çətinliklərini müəyyən etməkdir və o, aşağıdakı sahələri əhatə edə bilər:

 Görmə

 Eşitmə

 Fiziki inkişaf və koordinasiya

 İdrakın inkişafı (koqnitiv inkişaf)

 Sosial-emosional inkişaf

 Erkən oxu və riyazi bacarıqlar

Bu inkişaf sahələrinə aşağıdakı bacarıqlar daxildir:



- Kiçik motor bacarıqları
- Böyük motor bacarıqları
- Qavrama bacarıqları
- Audio və vizual diqqət və hafizə
- Nitqin ifadə olunması və başa düşülməsi
- Özünəxidmət bacarıqları
- Sosial-emosional bacarıqlar

İbtidai sinfə başlamadan öncə uşaqların erkən oxu və riyazi bacarıqlarının da skrininqi aparılır. Qarşıya qoyulan məqsəddən asılı olaraq, skrininq zamanı bütün sahələrin və ya hər-hansısa müəyyən sahənin dəyərləndirilməsi aparıla bilər.

### 4.3. Skrininq alətlərinin nümunələri

**Skrininq alətlərinin seçilməsi zamanı nəzərə alınması vacib olan 3 əsas tələb:**

1. Skrininq aləti psixometrik baxımından münasib olmalıdır. İnkişaf səviyyəsinin skrininqi normativ şkalalar vasitəsilə həyata keçirildiyindən, bu şkalalar hər bir ölkə üçün standartlaşdırma və mötəbərliyinin yoxlanılması prosedurlarından keçməlidir. Digər sözlə, skrininq alətləri mötəbərlik və etibarlılıq tələblərini ödəməlidir.

2. Skrininq aləti öyrənmə çətinliklərini və inkişaf səviyyələrini dəqiq müəyyənləşdirə bilməlidir.

3. Skrininq aləti müəssisənin tədris planı və təlim praktikasına uyğun olmalıdır.

***Skrininq alətlərinə nümunə***. Aşağıdakı beynəlxaq təcrübədə tətbiq edilən bir neçə skrininq alətinin siyahısı verilmişdir:

1. *Uşaq inkişafının qiymətləndirməsi üzrə vəsait (DİSC)* – Bu skrininq aləti 0-60 aylıq uşaqların 8 əsas bacarıqlarını qiymətləndirir: kiçik və böyük motor, nitqin ifadə olunması və başa düşülməsi, audial diqqət və hafizə, vizual diqqət və hafizə, sosial bacarıqlar və özünəxidmət bacarıqları. Qiymətləndirmə birbaşa uşağı dəyərləndirmə və valideynlərlə sorğu vasitəsi ilə aparıla bilər. Azərbaycan dilinə və mədəniyyətinə uyğunlaşdırılmış vəsaitdir. Skrininqin keçirilməsi orta hesabla 25 dəqiqə təşkil edir.

2. *Yaş və dövrlər sorğusu -3 (ASQ 3)* - 1-66 aylıq uşaqların ünsiyyət, böyük və kiçik motor bacarıqları, problemi həll etmə, şəxsi-sosial bacarıqlar qiyməndirilir. Skrininq 21 qrup sualdan ibarətdir (hər birində 30 sual olmaqla) və keçirilməsi 10-15 dəqiqə təşkil edir.

3. *Yaş və dövrlər sorğusu: Sosial-Emosional (ASQ-SE)* 6-60 aylıq uşaqların özünü tənzimləmə, uyğunluq, ünsiyyət, adaptiv davranış, müstəqillik, emosionallıq, insanlarla qarşılıqlı əlaqə bacarıqları qiymətləndirilir. ASQ-SE yaş intervallarına əsaslanan səkkiz ayrı sorğudan ibarətdir: 6 ay (19 maddə), 12 ay (22 maddə), 18 ay (26 maddə), 24 ay (26 maddə), 30 ay (29 maddə), 36 ay (31 maddə), 48 ay (33 maddə) və 60 ay (33 maddə). Skrininqin keçirilməsi 10-15 dəqiqə təşkil edir.

4. *Battelle inkişaf inventarı skrininq testi (BDİ-II)* 0-7 yaşlı uşaqların adaptiv davranış, şəxsi-sosial, kommunikasiya, motor və koqnitiv bacarıqları qiymətləndirilir. BDİ-II skrininq testi 100 maddədən ibarətdir, lakin hər uşaq üçün bu maddələrin hamısı istifadə edilmir. 10 yaş qrupu üçün beş inkişaf sahəsinin hər biri üçün 2 maddə var. Beləliklə, bir uşaq adətən 10 maddəni tamamlayır. Skrininq uşağın yaşından asılı olaraq 10-30 dəqiqə arası çəkə bilər.

5. *Denver II testi* – 0-6 yaşlı uşaqların şəxsi-sosial, kiçik və böyük motor, adaptiv davranış, nitq bacarıqları qiymətləndirilir. Denver II 125 maddədən ibarətdir və sonda əlavə keçirilən 5 davranışı ölçən maddələr var. Lakin 125 maddənin hamısı hər bir uşağa verilmir. Veriləcək sualların sayı vaxt resursundan və skrininqin məqsədindən asılıdır. Bu alətlə skrininq üçün tələb olunan vaxt uşağın yaşından və inkişaf səviyyəsindən asılıdır. Körpələrin skrininqi 10 dəqiqə çəkə bilər; 5 yaşlı uşaqların skrininqi isə 30 dəqiqə çəkə bilər.

6. *Gezzel inkişaf testi (GDO-R)*- 3-6 yaşlı uşaqların motor bacarıqları, koqnitiv, dil və sosial-emosional bacarıqları qiymətləndirilir. Skrininqin keçirilməsinə 20 dəqiqə vaxt sərf edilir.

7. *Veksler intellekt testi* (WPPSI-IV) - 2 yaş 6 aylıq - 7 yaş 3 aylıq uşaqlarda ümumi bilik səviyyəsi, oxşarları tapma, söz ehtiyatı, hesablama, düşüncə, rəqəmləri yadda saxlama, rəsmi fərdi tamamlama, şəkilləri düzmə, Kross kubiklərdən şablon yığma, hissələri birləşdirmə, şifrələmə, labirintdən keçmə kimi əqli bacarıqları qiymətləndirir.

8. *Portic tesi* – 0-6 yaşlı uşaqların sosial, nitq, qavrama, özünəxidmət və fiziki inkişafının skrininqi alətidir. Portic testi ilə 600-ə yaxın bacarıqların skrininq edilməsi mümkündür.

9. *AGTE (Ankara Gelişim Tarama Envanteri) testi* – 0-6 yaşlı uşaqların nitq, koqnitiv, böyük və kiçik motor və sosial bacarıqların inkişafının qiymətləndirilməsi üçün istifadə edilir. Test valideynlərlə sorğu vasitəsi ilə keçirilir və 154 maddədən ibarətdir.

Uşaq inkişafının skrininqi alətlərinin kifayət qədər çox olduğunu nəzərə alaraq, onlar arasında seçimi skrininqin əsas məqsədinə və nəzərdə tutulan hədəf qrupunun yaşına uyğun aparmaq vacibdir. Qeyd edək ki, Azərbaycanda və qonşu ölkələrdə məktəbəqdər yaşlı uşaqların skrininqi üçün psixometrik tələbləri ödəyən vahid alət mövcüd deyil və bu istiqamətdə işlər hələ aparılmaqdadır.



Erkən oxu bacarıqlarının inkişafının qiymətləndirilməsi. Azərbaycan Respublikasının Məktəbəqədər təhsilin dövlət standartlarına əsasən, 5-6 yaşında uşaqlar aşağıdakıları bilməli və bacarmalıdır:

- hərf və səsləri fərqləndirir;
- hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur;
- kəsmə əlifba vasitəsi ilə sözlər düzür.

Erkən oxu bacarıqları hesab edilən bu bacarıqların qiymətləndirilməsi aşağıda sadalanan nümunəvi skrininq alətləri vasitəsi ilə aparıla bilər (Əlavə № 3). Nəzərə alsaq ki, skrininqə əlilliyi olan 5 yaşlı uşaqlar cəlb olunacaq, təqdim olunan erkən oxu bacarıqlarının skrininqi məktəbəhazırlıq təlimi başlamazdan öncə keçirilməməlidir. Bu bacarıqların inkişafının ölçülməsi təlim prosesi zamanı, inkişaf dinamikasının skrininqi zamanı və ya təhsil ilinin sonunda yekun skrininq zamanı aparıla bilər.

Erkən oxu bacarıqlarına daxil edilir:

1. İlkin səslərin tanınması;
2. Sözlərin səslərə bölünməsi;
3. Hərfin düzgün adlandırılması;
4. Hərfin səsdən fərqləndirilməsi;
5. Tanış olmayan sözlərin mənasının müəyyənləşdirilməsi;
6. Mətnin səlis şifahi oxunması.



# V FƏSİL. Fərdi təlim planı



### 5.1. Fərdi Təlim Planının mahiyyəti və strukturu

Fərdi Təlim Planı (FTP) inklüziv təhsilə cəlb edilən uşaqların təhsil ehtiyaclarını effektiv şəkildə qarşılamaq üçün istifadə olunan sənəddir və bu uşaqların uğurlu təhsili üçün əsas bələdçi rolunu oynayır.

- ***Uşağın cari bilik və bacarıqlarının təhlili.*** Uşağın diaqnostik qiymətləndirilməsi zamanı uşağın bilik və bacarıqları, o cümlədən əlilliyi ilə bağlı keçmiş və cari durumu ilə bağlı məlumatlar FTP-yə daxil edilir.

- ***Məqsəd və vəzifələrin müəyyən edilməsi.*** Uşağın mövcud bilik və bacarıqları təhlil edildikdən sonra, onun ehtiyaclarına uyğun olaraq bilik və bacarıqlar əldə edə bilməsi üçün məqsəd və vəzifələr növbəti bölməyə daxil edilir və uşağın ilin sonunda hansı təhsil məqsədlərinə çatacağı qeyd edilir. Müntəzəm olaraq, uşağın 2 həftə ərzində durumu müşahidə edilərək bu məqsəd və vəzifələrdə müvafiq dəyişikliklər edilə bilər.

- ***Xüsusi və əlavə xidmətlər***. Bu bölmədə uşağa göstəriləcək xüsusi və əlavə xidmətlər göstərilir.

- ***Sinif mühitinin uyğunlaşdırılması və işin təşkili.*** Bu bölmədə uşağın ehtiyaclarına uyğun təlim, yardımçı təlim vasitələri, təlim tapşırıqlarında dəyişiklər və uşağın öyrənməsini asanlaşdıracaq müxtəlif vasitələr (akkomodasiyalar) qeyd edilir.

- ***Fəaliyyət müddəti.*** Ümumi fəaliyyət və təmin edilməsi planlaşdırılan xidmətlərin yerinə yetirilmə müddəti burada qeyd edilir.

- ***Uşağın uğurları haqqında məlumat.*** İnkluziv təhsilə cəlb edilən uşağın inkişafının monitorinqi onun təhsil ehtiyaclarını qarşılamağın ən zəruri hissəsidir. Uşağın akademik uğurlarının monitorinqi müntəzəm olaraq formativ qiymətləndirmə aparmaqla həyata keçirilir. Məlumat toplamaq üçün müəllim müşahidəsi, nəzarət kartları və uşaqların sinif taqşırıqlarının nəticələri istifadə edilir.

***Qeyd:*** FTP nümunəsi Əlavə № 4-də təqdim edilmişdir.

# VI FƏSİL. Universal sinif strategiyaları

### 6.1. Bütün uşaqlar və müxtəlif əlilliyi olan uşaqlar ilə bağlı müəllimə təlimatlar

***Təlimin təşkilində oyundan istifadə.***

Uşaqların inkişafı və hər bir yaş dövrü üçün müxtəlif oyunlar tələb olunur. Oyun vasitəsilə uşaqlar ətraf aləmi dərk edir və bununla əlaqədar məlumatları ifadə etmə imkanı qazanırlar. Çox vaxt əlilliyi olan uşaqlar intellektual cəhətdən proqramın öhdəsindən gəlməkdə çətinlik çəkirlər. Belə uşaqlar üçün qarşılıqlı əlaqə və ünsiyyət qurmaq daha çətindir. Təlimin təşkilində məqsədyönlü planlaşdırılmış və təşkil olunmuş inkişafetdirici oyunlar uşaq inkişafına böyük təkan verə bilər. Belə ki, uşaqlar həmyaşıdları ilə qarşılıqlı əlaqədə sosial vərdişlərə yiyələnirlər. Oyunda uşaqlar əməkdaşlıq etmək, dinləmək və bir-biri ilə bölüşməyi öyrənirlər. Tapşırıqların yerinə yetirilməsi zamanı digər uşaq və böyüklərlə əməkdaşlıqda uşaqların özünüqiymətləndirməsi formalaşır. Belə şəkildə onlar şəxsi, fiziki, intellektual və sosial problemləri həll edirlər.



Oyunlar vasitəsilə uşaqyönümlü mühitin yaradılması həm də təlimin fərdiləşməsinə xidmət edir. Təlim mühiti dinamik və fərdi maraqlara, uşaqların xüsusiyyətlərinə uyğun materiallarla zəngin olmalıdır. Avadanlıq, öyrədici vəsaitlər və qrup otağının planlaşdırılması hər bir uşağın inkişafına kömək edir. Təlimin təşkili zamanı bütün müxtəlifliklər müəllim tərəfindən nəzərə alınmalıdır.

Müəllimin ən birinci vəzifəsi uşaqları oyuna cəlb etmək və əks əlaqə qurmaqdır. Oyun uşağın fiziki, əqli o cümlədən mənəvi inkişafına təsir edən mühüm vasitədir. Nağıl, hekayə zamanı eşitdikləri personajların hərəkətlərini təqlid edərkən məqsəd ona daha aydın olur, lakin eşidiklərini həyata keçirmək uşaq üçün çətin prosesdir. Yaradıcı oyun zamanı uşaqlara daha geniş imkanlar vermək vacibdir, çünki bu oyun uşağın təfəkkürü, marağı əsasında yaranır. Müəllim oyunu təşkil edərkən inklüzivliyi nəzərə almalı və oyun kollektivində öz yerini tapmaqda hər bir uşağa kömək göstərməlidir. Uşaq oyunun fəal üzvü olmaqla yaxşı yoldaş kimi yetişir. Müəllim oyunu elə qurmalıdır ki, orada bütün uşaqlar iştirak etsinlər. Oyun zamanı əlilliyi olan uşaqlara qarşı daha həssas olmaq vacibdir. Oyunu müşahidə edərkən müəllimdən çox incəlik tələb olunur ki, bütün mərhələləri müşahidə edərək və uşaqları müsbət istiqamətə yönəldə bilsin.

Təlim prosesində daha çox didaktik oyunlardan istifadə olunur. Didaktik oyunlar uşağın əqli inkişafı və təlimə hazırlığı üçün daha əhəmiyyətlidir.

***Didaktik oyunların təşkili*** zamanı müəllim:

- Hər bir oyunun məzmununu və qaydalarını mükəmməl bilməlidir;
- Hər bir oyunda özünün rolunu və iştirakını aydın təsəvvür etməlidir;
- Oyun prosesində istifadə olunan əşyaları şəraitə uyğun dəyişdirməlidir;
- Oyunun məqsədini, məzmununu, qaydasını asan və sadə şəkildə uşaqlara izah etməlidir;
- Uşaqların fərdi xüsusiyyətlərini nəzərə almalıdır;
- Oyunun gedişini müşahidə etməli, lazım gəldikdə düzgün istiqamətləndirməlidir;
- Oyunu təhlil etməli və pozitiv qiymətləndirməlidir.

***Uşaq üçün oyunun faydaları:***

- Evində və ətrafında olub keçənləri görür, düşünməyi və müstəqil qərar verməyi öyrənir;
- Oynayarkən xoşbəxt olur, öz həyatını oyuna bənzədərək rahatlaşır;
- Yeni bacarıqlar qazanır;
- Xəyal gücünü çalışdırır, oynadığı şəxslərlə bir yerdə olmağı, onlarla bölüşməyi və danışmağı öyrənir;
- Gündəlik həyatda gördüklərini, eşitdiklərini sınaqdan keçirir;
- Öyrəndiklərini oyun ilə möhkəmləndirir;
- Ətrafında duyduqlarını, gördüklərini oyunda canlandırılmasını öyrənmək qazancı əldə edir;
- Uşaqlar özlərinə edilməsini istədikləri və ya edilməsindən qorxduqları şeyləri oyunlarında canladırırlar.



### 6.2. Akkomodasiya və modifikasiya

***Təlimin akkomodasiyası (uyğunlaşdırılması).*** Akkomodasiya tədris materialının məzmununu və mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişir. Məsələn, ilkin riyazi anlayışların inkişaf etdirlməsinə aid məşğələdə tapşırığı yerinə yetirən uşaqlardan say çöpləri ilə işləmələri tələb olunur. Adətən, uşaqlar materialların təşkili zamanı (zəruri şərt – müstəqil öyrənmə bacarıqlarına, fiziki-hərəki bacarıqlara malik olma) çətinlik çəkirlər. Müəllim bu çətinlikləri aradan qaldırmaq qərarına gəlir və uşaqların say çöpləri ilə işləmələri üçün karton qutuların qapağını uşaqlara verməklə materialların hazırlanmasında onlara yardım göstərir. Qapağın kənarları çöplərin ətrafa səpələnməsinin qarşısını alır. Bu da uşaqların diqqətini tapşırığı yerinə yetirmə üzərində cəmləməyə imkan verir.

***Təlimin modifikasiyası (dəyişdirilməsi).*** Modifikasiya təlim materialının məzmununu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişir. Tutaq ki, uşaqların yaxınlıqdakı çaya/parka ekskursiyaya getmələri nəzərdə tutulub. Onlar orada müşahidə aparmalı, qrup geri döndükdən sonra isə öz müşahidələrini bölüşməlidirlər. Təhlil apardıqdan sonra müəllim müəyyənləşdirir ki, uşaqlardan təxminən ¼-i kifayət qədər müşahidə etmə bacarığına malik deyil. Müəllim məşğələni modifikasiya etmək qərarına gəlir. Bunun üçün uşaqlara seçim verilir. Onlar qeydlər apara və ya şəkillər çəkə bilərlər. Uşaqlar qayıtdıqdan sonra ya qeydlərinə əsaslanmaqla danışa, ya da çəkdiyi şəkillərdə nəyin təsvir olunduğu ilə bağlı öz fikirlərini deyə bilərlər.

Təlimdə ümumi uyğunlaşdırma əlilliyi olan uşaqların qrup fəaliyyətlərində uğurla iştirak etmələrinə əhəmiyyətli dərəcədə yardım göstərsə də, onlar üçün fərdi akkomodasiya və modifikasiyalar tələb oluna bilər. Müəllim uşaqları təlim prosesinə tam cəlb etmək üçün bərabər imkanlar yaratmaq məqsədilə akkomodasiyalar həyata keçirir. Başqa sözlə, akkomodasiyalar uşaqlara təlim prosesində iştirak etmək imkanı verir, lakin onlara hər hansı üstünlük vermir.

***Təlim prosesində aşağıdakı sahələr üzrə akkomodasiyaları həyata keçirmək olar:***

• *Fiziki mühit.* Bu sahə üzrə akkomodasiya qrup mühitində, qruplara bölünmədə, uşaqların yerləşdirilməsində dəyişiklikləri nəzərdə tutur: məsələn, Əlinin görmə çətinliyi olduğu üçün bütün məşgələlərdə o, müəllimə daha yaxın əyləşir.

• *Təlim metodu.* Bu sahə üzrə akkomodasiya müəllimin materialı necə təqdim etməsi, eləcə də uşaqların məşğələlərdə iştirak etməyə necə cəlb edilmələri nöqteyi-nəzərindən təlim metodunda dəyişiklikliyi nəzərdə tutur və uşaqların təliminə yardım etmək məqsədi daşıyır.

• *Göstərişlər.* Bu sahə üzrə akkomodasiya müəllimin qayda, metod və gündəlik məşğələləri təqdim etməsi üzrə dəyişiklikləri nəzərdə tutur.

• *Materiallar.* Bu sahə üzrə akkomodasiya təlim ləvazimatı və materialların uşaqların fərdi ehtiyaclarına uyğunlaşdırılmasından ibarətdir.

Səmərəli təlim bütün uşaqlar üçün əhəmiyyətlidir, ancaq inkişafında müəyyən çətinlikləri olan bir çox uşaqların qrup məşğələlərində tam iştirak etməklə öz potensiallarını realizə edə bilmələri üçün xüsusi dəstəyə ehtiyacı olur. Müəllim hər bir uşağın təlim prosesinə cəlb olunmasını təmin etməlidir. Müvəffəqiyyət əldə etmək üçün onlar uşaqların inkişafı, maraqları və digər fərdi xüsusiyyətləri ilə bağlı ehtiyaclarını nəzərə almaqla təlimdə uyğunlaşdırma (akkomodasiya) və dəyişiklikləri (modifikasiyaları) həyata keçirməlidirlər.

Müxtəlif növ akkomadasiyaları tətbiq edərkən təlimin məzmunu dəyişmir, modifikasiyaların tətbiqi zamanı isə o, adətən, dəyişikliyə uğrayır. Bəzi hallarda modifikasiyalardan istifadə olunması uşağa məşğələlərdə iştirak etmə imkanı yarada bilər. hissələrində iştirak etmək və ya proqram üzrə təlim materialının məzmununun yalnız bir hissəsini mənimsəmək tələb olunur.

***Modifikasiyalar aşağıdakılar vasitəsilə həyata keçirilə bilər:***

• *Mənimsənilməsi zəruri olan məzmunun qısaldılması.* Uşaqdan məşğələnin ancaq bəzi hissələrində iştirak etmək və ya proqram üzrə təlim materialının məzmununun yalnız bir hissəsini mənimsəmək tələb olunur. Bəzən, məşğələnin tələbləri uşağın qabiliyyətlərini üstələyir. Buna baxmayaraq, uşaqdan fəaliyyətdə qismən iştirak etmək tələb olunur: məsələn, əqli əlilliyi olan uşağı mövzunun daha sadə şəkildə ifadə olunmuş hissəsinə cəlb etmək olar.

• *Fəaliyyətdə iştirakla bağlı verilən tələblərin azaldılması.* Uşaqdan məşğələnin yalnız bir hissəsinin yerinə yetirilməsi tələb oluna bilər. Bu zaman əlilliyi olan uşaqdan ya digər uşaqların mənimsəməli olduqları materialın, ya da onun bir hissəsinin mənimsənilməsi tələb olunur: məsələn, disqrafiya ilə bağlı problemləri olan uşağa icazə vermək olar ki, o öz hekayəsini müəllimə nəql etsin. Fiziki əlilliyi olan uşaqdan daha az fəaliyyət yerinə yetirmək tələb oluna bilər.

• Modifikasiyanın istənilən növünü əlilliyi olan uşağın ailəsi ilə müzakirə etmək zəruridir, çünki əksər hallarda modifikasiya uşağın bilməli və bacarmalı olduqlarını dəyişir.



# VII FƏSİL. İnklüziv məşğələ planlarının hazırlanması

Məktəbəqədər hazırlıq qruplarında inklüziv təhsilə cəlb olunan uşaqlar üçün məşğələ planının hazırlanması digər uşaqların planlarından fərqli ola bilər. Ancaq inklüziv təhsilə cəlb olunan uşaqların ehtiyac və xüsusiyyətlərini nəzərə alaraq, yaxşı planlaşdırılmış və hazırlanmış məşğələ planı uşaqların əylənərək öyrənməklə hədəflənən bilik və bacarıqları mənimsəməsini təmin edəcək. İnklüziv təhsilə cəlb edilən uşaqlar üçün məşğələ planı tərtib edilərkən sənəddə, ilkin olaraq, *məşğələnin mövzusu, məqsədi (yəni məhz məşğələnin sonunda uşağın əldə edəcəyi bilik və bacarıqlar) formativ qiymətləndirmə vasitələri, istifadə ediləcək materiallar, inklüziv təhsilə cəlb edilən uşaqlar üçün uyğunlaşdırmalar (akkomodasiyalar və modifikasiyalar), məşğələ fəaliyyətləri və sonda müəllimin məşğələnin nəticəsi ilə bağlı fikirləri* öz əksini tapır.

Məşğələ müəllimin giriş sözü ilə başlayır. Giriş əsasən keçmiş məşğələnin yada salınması və ya yeni tapşırığın təqdim edilməsi fəaliyyəti ilə başlayır. Müasir tədris metodlarına əsasən müəllim məşğələni "mən edim, biz edək və sən et" prinsiplərinə əsaslanaraq həyata keçirməyə davam edir. Müəllim yeni məlumatın təqdimatı zamanı məlumatı özü izah edərək göstərir, birlikdə uşaqlarla əyləndirici tapşırıqlar edir və sonra sərbəst tapşırıqlarla uşaqların fərdi və ya kiçik qruplar halında işləməsini təmin edir. Eyni zamanda, müəllim uşaqların səhvlərinə motivasiyaedici sözlərdən istifadə edərək düzəlişlər edə bilər. Sərbəst iş zamanı və dərhal sonra müəllim formativ qiymətlədirmə apara bilər və uşaqların təqdim edilən bilik və bacarıqlarını yoxlaya bilər. Nəhayət, müəllim yeni təqdim edilmiş mövzu haqqında ümumiləşdirmələr apararaq məşğələni bitirə bilər.

### 7.1. Məktəbəqədər hazırlıq qruplarında inklüziv məşğələ nümunəsi

İnklüziv sinifdə bir məşğələnin gedişatı müxtəlif təhsil ehtiyacları olan uşaqların araşdırdıqları mövzuların nə dərəcədə yaxından təmas etmələrindən, əvvəlki mövzunu necə öyrənməsindən, öyrənmənin hansı mərhələsinin əsas götürüldüyündən (yeni materialın təqdimatı, keçmişin təkrarlanması, bilik, bacarıq və bacarıqlara nəzarət) bağlıdır (3-4 və 4-5 yaş psixi və fiziki inkişaf səviyyəsi üzrə ümumi təlim nəticələrinə uyğun məşğələ nümunələri Əlavə № 1 və Əlavə № 2-də verilmişdir). Sinifdə uşaqların (öyrənmə əlilliyi olan uşaqlarla) ortaq bir mövzusu varsa, onda materialın tədqiqi ön planda aparılır və uşaqlar öz proqramları ilə müəyyən olunan səviyyəyə uyğun bilik əldə edirlər.

Əldə olunan bilik və bacarıqların inkişafı hər bir uşaq üçün fərdi olaraq seçilmiş müxtəlif didaktik materiallara (kartlar, dərslikdə olan tapşırıqlar, lövhədə olan materiallara və s.) əsaslanır. Müxtəlif proqram materialı öyrənilirsə və birgə iş mümkün deyilsə, bu halda məşğələ aşağıdakı quruluşa uyğun təşkil edilir: müəllim əvvəlcə əsas tədris proqramları üzrə yeni materialı izah edir və bu zaman öyrənmə əlilliyi olan uşaqlar əvvəl öyrəndiklərini birləşdirməyə yönəlmiş müstəqil işlər görürlər. Bundan əlavə, yeni öyrənilən materialı əlaqələndirmək üçün müəllim sinfə müstəqil iş verir və inkişaf xüsusiyyətləri olan bir qrup uşaq ilə tamamlanmış tapşırığın təhlili, fərdi yardım göstərilməsi, əlavə izahat və aydınlaşdırma, yeni materialın izahı daxil olmaqla iş təşkil olunur. Müəllim fəaliyyətinin bu alternativliyi məşğələ boyu davam edir.

Müəllim məşğələdə öyrənmə əlilliyi olan uşağa çox vaxt həsr edə bilmir və buna görə də onun üçün hərəkətlər alqoritmi olan bir kartdan istifadə edir. Və əksinə, mürəkkəb mövzunu bir uşağa izah etmək üçün müəllim diqqətini yalnız bu uşağa yönəltmək məcburiyyətində qalırsa, bu zaman qalan uşaqlar müəyyən tapşırıqları yerinə yetirirlər.

İnklüziv sinifdə məşğələ rejimini təşkil edərkən müəllim müəyyən tələblərə əməl etməlidir. Məşğələdə aydın bir alqoritm olmalıdır. Müəyyən bir alqoritmə alışaraq uşaqlar daha mütəşəkkil olurlar.

***Alqoritmi aşağıdakı formada qura bilərsiniz:***

*Şifahi tapşırıqlar aşağıdakı alqoritmə uyğun olaraq yerinə yetirilir.*

• müəllim tapşırığı özü elan edir (yəni "biz nə edəcəyik") dəstəkləyici sözlər və ya kartoçkalardan istifadə edir;

• müəllim, tapşırığı necə yerinə yetirəcəyini söyləyir: əvvəlcə nə gəlir, sonra nə, nəticəsi. Burada hərəkətlər alqoritmi, tapşırıqları, diaqramları, təsvirlərdən istifadə edir;

• tapşırığın addım-addım yerinə yetirilməsi: - uşaqlar icra edir, müəllimlə birlikdə yoxlanır;

*Yazılı tapşırıqlar aşağıdakı alqoritmə uyğun olaraq yerinə yetirilir:*

• müəllim tapşırığı özü elan edir (yəni? "biz nə edəcəyik")

• dəstəkləyici sözlərdən, kartlardan istifadə edir;

• uşaqlara müstəqil icra üçün tapşırıq verilir (ya da lövhədə yazılıb; sinifdəki stendlərdə, diaqramlar və s.);

tapşırığın yoxlanılması: müəllim hər bir uşağa yaxınlaşaraq tapşırığı ayrıca yoxlaya bilər və ya müəllim hər bir uşağın cavabını söyləməsini xahiş edə bilər.



Məşğələ üçün əsas tələblərdən biri öyrənmə əlilliyi olan uşaqların zəif diqqətini, diqqətin tükənməsini və monoton fəaliyyətlərlə doymasını nəzərə almaqdır. Buna görə məşğələdə müəllim müxtəlif fəaliyyət növlərindən istifadə etməlidir:

• yaddaşı, diqqəti yetişdirən tapşırıqlarla məşğələyə başlamaq daha yaxşıdır;

• mürəkkəb tapşırıqları yalnız məşğələnin ortasında istifadə edin;

• öyrənmə ilə əlaqəli alternativ vəzifələr və yalnız öyrənmə səviyyəsinin xüsusiyyətləri ilə əlaqəli istiqamətə sahib olan tapşırıqlar (əyani gimnastika, əlin incə motor bacarıqlarının inkişafı üçün tapşırıqların istifadəsi, qavrayış və düşüncənin inkişafı), sürpriz, oynaq anlar, rəqabət anları, intriqa, mini-oyunlardan (yəni uşaqların duyğularına təsir edən və biliyi həyatla əlaqələndirən fəaliyyətlərdən) istifadə edin.

# VIII FƏSİL. Formativ qiymətləndirmə

**8.1. Formativ qiymətləndirmənin əsasları**

Məktəbəhazırlıq qruplarında inkluziv təhsilə cəlb edilmiş uşaqların təliminin və tətbiq edilən təlim metodlarının effektivliyini təmin etmək üçün müntəzəm qiymətləndirmə aparılması vacibdir. Məktəbəqədər hazırlıq dövründə təhsil alan uşaqlar formativ qiymətləndirmə üsulundan istifadə edilərək qiymətləndirilir. Bu qiymətləndirmə növünün əsas metodlarından biri inkişafın monitorinqidir.

***İnkişafın monitorinqi.*** İnkişaf monitorinqi uşağın müntəzəm və davamlı öyrənməsini qiymətləndirir, təlimin effektivliyini müşahidə edir və uşağın akademik inkişafını təmin etmək üçün təlimdə müvafiq dəyişikliklər etməyə imkan yaradır. İnkişafın monitorinqinin aparılması prosesi aşağıdakı kimidir:

- Formativ qiymətləndirmə üsulu seçilir (müşahidə, tapşırıq nəticələri, qeyd kartları və s.);
- Qrafik hazırlanır;
- Uşağın cari akademik performansı və hədəf nöqtəsi arasında xətt çəkilir;
- Uşağın həftəlik performansı qrafik üzərində nöqtələrlə qeyd edilir və bir ayda qeyd edilən nöqtələr birləşdirilərək qrafik xətti yaradılır;
- Əgər uşağın akademik inkişafı bir ay ərzində hədəf xəttindən aşağıda qalarsa, uşağın təlimində dəyişiklər edilməsi zəruri olur;
- Əgər uşağın akademik inkişafı bir ay ərzində hədəf xəttindən yuxarıda olarsa, uşağın təlimi olduğu kimi saxlanılır və hədəfləri inkişaf tendensiyasına uyğun olaraq artırılır;
- Əgər uşağın akademik inkişafı bir ay ərzində hədəf xətti ilə eynilik təşkil edərsə, təlimə olduğu kimi davam edilir.



# XI FƏSİL. Müəllim və valideynlər üçün yardımçı resurslar

**Mövzu: Öyrənmə mühitinin yaradılması**

https://www.youtube.com/watch?v=hsTNbBSwdOE

**Mövzu: Universal skrininq**

***Erkən oxu bacarıqlarının inkişafının skrininqi***

1. *İlkin Səsi Tanımaq (Initial sound fluency -ISF). Müəllim üçün nümunə:* https://aacliteracy.psu.edu/index.php/page/show/id/5/index.html

2. *Fonem Seqmentasiya Səliliyi. Müəllim üçün nümunə video:* https://www.youtube.com/watch?v=hbOpKUapsNY

   https://aacliteracy.psu.edu/index.php/page/show/id/5/index.html

3. *Hərf Adlandırma Sərbəstliyi. Müəllim üçün nümunə video:* https://www.youtube.com/watch?v=eVz3FsxxjVc

   https://www.youtube.com/watch?v=6YQvcUs-_uc

   https://aacliteracy.psu.edu/index.php/page/show/id/6/index.html

**Mövzu: Məktəbəhazırlıqdan ibtidai təhsilə keçid (ibtidai sinif müəlliminə psixo-pedaqoji hesabat - müəllimə tövsiyə)-portfolio nümunə**

*Foto kitabça. Müəllim üçün nümunə:*

http://preschoolspeech.com/wp/wp-content/uploads/2011/09/My-New-School-MJF21.pdf



## 9.1. Müəllim-müəllim və müəllim-valideyn əməkdaşlığının faydası

İnklüziv siniflərdə müəllimin həmin uşaqların valideynləri ilə əməkdaşlığı xüsusi ilə vacibdir. Valideyn ilə əməkdaşlıq dedikdə, onların müəllimə uşağın qiymətləndirilməsi, onun inkişaf səviyyələrinin müəyyənləşdirilməsində, öyrənmə prosesində iştirakı və əlilliyi olan uşağın növbəti inkişaf hədəflərinə çatmaq üçün sistemli yanaşmada iştirakı nəzərdə tutulur. Əslində, tək əlilliyi olan uşaqlar üçün deyil, həm də müxtəlif yaşlı əlilliyi olmayan uşaqların da öyrənmə prosesində valideynin iştirakı onların akademik və həyat üçün lazımi bacarıqların əldə olunmasında mühüm yer alır.

***Valideynlərin təlim prosesində iştirakının faydalı olduğu 3 tərəf:***

1. Müəllim üçün – valideynlə münasibətin qurulması, müəllimə mənəvi dəstək və məktəb mühiti;

2. Uşaq üçün – davranış, münasibətin yaxşılaşması, əqli inkişaf və məşğələlərə davamiyyət;

3. Valideynlər üçün – valideynin özünə inamı, valideyn məmnunluğu və özlərinin təhsilə olan marağının artması.

***Valideynlər tərəfindən edilən dəstək aşağıdakılardan ibarətdir:***

1. *Məlumatın verilməsi* – valideynlər uşaqları haqqında dolğun məlumat (güclü və zəif tərəfləri, tibbi göstəriciləri) verir, müəllim və mütəxəssislərlə daim ünsiyyətdə olub uşaqlarının ehtiyacını ödəyən FTP-nin yenilənməsində iştirak edirlər. Valideynlər həm də bu zaman dinlənildiyini və məktəbin onların uşaqları ilə maraqlandıqlarını hiss edirlər;

2. *Əməkdaşlıq* – Valideynlər təkcə məlumat verməklə kifayətlənməyərək, həmçinin müəllimə sinif tapşırıqlarının öncədən evdə hazırlanmasında, ev mühitinin də uşaqların ehtiyaclarına uyğun düzəldilməsində, həmçinin FTP-dəki hədəflərə çatmaq üçün müəllimə yardım etməlidirlər;

3. *Resurslar* – Valideynlər, həmçinin müəllimə müəyyən öyrənmə vasitələrinin hazırlanmasında yaxından iştirak edə bilərlər. Digərləri müəllim köməkçisi kimi iştirak edib müəyyən fəaliyyətlərin yerinə yetirilməsi, kurikulumun müəyyən sahələrinin yerinə yetirilməsində iştirak edə bilərlər.

***Valideynlərə edilən dəstəyə aşağıdakılar daxildir:***

1. *Ünsiyyət* – Uşaqları haqqında məlumatlar valideynlər üçün əlçatan olmalıdır. Onlar uşaqlarında hansı çətinliklərinin olması, bunları həll etmək üçün təhsil müəssisəsinin nə etmək istədiyi haqqında məlumatlı olmalıdırlar. Müəllim valideynlərlə müxtəlif vasitələrlə (təkbətək görüş, evə səfər, həftəlik və ya günlük hesabatlar, telefon, e-mail, mesaj) ünsiyyət yaratmalıdır.

2. *Maarifləndirmə* - valideynlər əlilliyi olan uşaqları ilə necə davranmaq, onların öyrənmə prosesində iştirakı və ya rolu ilə bağlı məlumatlanmaya ehtiyac hiss edirlər. Valideynləri maarifləndirmənin effektiv yollarından biri valideynlər üçün uşaqların inkişafını təşviq edən təlimat və onların narahat edən məsələlərin müzakirəsidir.

3. *Dəstək*. Bəzən valideynlər sadəcə dinlənilməyə ehtiyac duyur və müəllimdən sadəcə yaxşı dinləyici olmağı istəyirlər.




***Müəllim-valideyn əməkdaşlığının növləri:***

***1. Qeyri-formal***

• *Sinif və ya təhsil müəssisəsində tədbirlər.* Valideynlər belə tədbirlərə dəvət alanda və iştirak edəndə öz uşağının da fəaliyyətinin şahidi olur;

• *Açıq qapı.* Valideynlər sadəcə məktəb (məktəbəqədər müəssisə) və siniflərə baş çəkir və məşğələ prosesinin şahidi olurlar;

• *Məktəb yarmarkası.* Müxtəlif əl işlərinin satış-sərgisi, milli və müxtəlif xalqların müsiqi və rəqslərinin nümayişi vaxtı müəllim və valideynlərin qeyri-rəsmi əməkdaşlığı yaranır;

• *Təbiət qoynuna və digər yerlərə ekskursiyalar* da bu yanaşmaya kömək edən vasitədir.

***2. Formal***

• *Valideyn-müəllim görüşləri və iclasları.* Bu görüşlərin effektivliyi hər iki tərəfin bir-birini dinləməsi, uğurları və problemlərin müzakirəsi, onların həlli yolunu birgə müzakirəsi ilə bağlıdır;

• Məktəb (məktəbəqədər müəssisə) üzrə *Əlilliyi olan Uşaqların Valideynlərinin Birliyi, Təşkilatı* yaradıla bilər ki, bu da mütəmadi olaraq həmin valideynlərin əlilliklə bağlı qanunvericilik, məktəbin bununla bağlı siyasəti, valideynlər, müəllimlər və psixoloqlar və digər mütəxəssislər arasında şəbəkə yarada bilər. Bu şəbəkə üzvləri yalnız əlilliklə bağlı maarifləndirmə, müəllimlərə məşğələlərin keçilməsində kömək etməklə deyil, həmçinin bununla əlaqədar dövlət siyasətinin qəbul olunması, qanunvericilik bazasında dəyişikliklə bağlı təşviqat işləri də apara bilərlər.

*Müəllim-müəllim əməkdaşlığı*

Həmkarların bir-birinə dəstək olması, təcrübə mübadiləsi, bu sahədə boşluqların, çatışmayan bacarıq və biliklərin yenilənməsi üçün vacibdir.

***Refleksiya.*** İnklüziv siniflərdə çalışan müəllimlər, mütəxəssislər, psixoloqlar və metodistlər öz fəaliyyətlərini təhlil edərək güclü və zəif tərəfləri müzakirə edirlər. Təcrübə mübadiləsi və müzakirələr müəllimlərin bilik və bacarıqlarını bir-birləri ilə bölüşməsinə və professionallıq səviyyələrinin artmasına səbəb olur. Təcrübə mübadiləsi və öz təcrübələrinin müzakirəsi zamanı müəllimlər bir-birlərinə hörmət etməli, bir-birlərinə daha çox kömək və dəstək olduqlarını göstərməlidirlər.

***Təcrübə və bilik.*** İnklüziv siniflərdə müəllim, psixoloq, məktəb administrasiyası, mütəxəssislər və digər təhsil iştirakçıları əlillik və inklüzivliklə bağlı siyasət, qanunlar, o cümlədən strategiyalarla tanış olmalıdır. Onlar daim bu sahə ilə bağlı məlumat və təcrübə toplamalı və uşaqıarın müxtəlif ehtiyaclarına uyğun onların tətbiqi ilə bağlı metodlar təklif etməlidirlər. Bu əməkdaşlıq əsasən 3 sahədə olur – birgə planlaşdırma, birgə sinif təlimatı və birgə qiymətləndirmə.

İnklüziv siniflərdə korreksiyaedici pedaqoqun da rolu böyükdür. Lakin onun rolu o vaxt uğurlu olur ki, o, təkcə əlilliyi olan uşağa deyil, ümumiyyətlə sinifdəki bütün uşaqlara yardım edir. Belə ki, korreksiyaedici pedaqoqun daim əlilliyi olan uşağın yanında olması uşağın sinif yoldaşlarından təcrid olunması və uşağın özünün aciz olması fikrini dəstəkləyir. Həmçinin, bu zaman əlilliyi olan uşaq həm müəllim, həm də digər sinif yoldaşları ilə əməkdaşlıq edə bilmir. İstisna hallarda, dəstəyə ehtiyacı olduğu halda korrektsiyaedici pedaqoq sırf əlliliyi olan uşağın yanında olur. Belə hallarda korreksiyaedici pedaqoq müəllimə dəstək göstərməli, birbaşa təlimat verən kimi çıxış etməməlidir.



**9.2. Məktəbəhazırlıqdan ibtidai təhsilə keçid**

Bir mühitdən digərinə keçid prosesi körpəlik dövründən yetkinliyədək insan həyatının vacib hissəsindən biridir. Keçid müəyyən dəyişiklik tələb edir və yeni imkanlar və çətinliklər gətirməsinə baxmaraq, bəzən stress və gənginliyə də səbəb ola bilər. ***Əlilliyi olan uşaqların məktəbəqədər hazırlıq qruplarından ibtidai sinfə rahat keçidini təmin etmək məqsədilə müəllim və valideynlər üçün strategiyalar:***

1. ***Sosial hekayələrin hazırlanması.*** Bu strategiyanın Autizm spektr pozuntusu olan uşaqlar tətbiq olunmasına baxmayaraq, hal-hazırda öyrənmədə çətinliyi və əlilliyi olan uşaqlara da tətbiq oluna bilər. Sosial hekayələrin əsas məqsədi fiziki, sosial və emosional baxımdan təhlükəsiz bir məzmun, format və səs istifadəsindən istifadə edərək məlumatın uşaqlarla dəqiq paylaşılmasıdır.

Nümunə olaraq, sosial hekayələrə aşağıdakılar daxil edilə bilər:

• *təsviri cümlələr* ("Gələn il mən yeni bir müəllimlə və yeni qaydaları olan sinifdə olacağam").

• *perspektivli cümlələr* ("Yeni sinfimdə bəzən qorxub, həyəcanlana bilərəm").

• *direktiv cümlələr* ("Mən yeni qaydaları öyrənməyə və yeni müəllimi dinləməyə çalışacağam).

• *müsbət cümlələr* ("Yeni qaydalara riayət etdiyim zaman yeni müəllimim xoşbəxt olacaq").

Hədəf qrupu əlilliyi olan məktəbəqədər yaşlı uşaqlar olduğu üçün hekayələr hazırlayarkən şəkillərdən istifadə vacibdir. Bu, məzmunu uşaqlar üçün maraqlı və anlaşıqlı edə bilər.  Aşağıda Autizm sindromu olan uşaqlar üçün tətbiq edilən bir hekayə nümunəsi göstərilmişdir:

Məktəbdə yüksək səs:

"Mən məktəbə gedəcəm. Mənim yeni müəllimim və çoxlu yeni dostlarım olacaq. Fiziki tərbiyə dərslərində onlarla idman edəcəm, musiqi dərslərində mahnı oxuyacam. Artıq daha böyük bir sinifdə dərs keçəcəm. Lakin məktəbdə yüksək səslər ola bilər. Bu, mənim qulaqlarımı incidə, məni ağlada və ya qışqırmağıma səbəb ola bilər. Ağlamağım və qışqırmağım müəllimimi və sinif yoldaşlarımı kədərləndirə və ya qorxuda bilər, amma yüksək səslər zamanı qulaqcıqlar mənim sakitləşməyimə kömək edə bilər. Yüksək səs olanda mən müəllimimdən qulaqcıq xahiş etməyi öyrənəcəm və bu müəllimimi və dostlarımı sevindirəcək. Xoşbəxt və sakit olmaqla, mən müəllimimi və bütün sinfimi xoşbəxt edəcəm"

**2. *Keçid planının tərtibi ilə bağlı görüş.*** Məktəbəhazırlıq qruplarında təşkil olunan inklüziv təlim proqramından ibtidai sinfə keçidi ilə bağlı ibtidai sinif müəllimi və ailə arasında görüşlərin keçirilməsi uşağın keçid dövrünün rahat keçməsinə kömək edə bilər. Bu görüşlər ibtidai sinif müəlliminin ailə ilə birlikdə uşağın təlim ehtiyaclarını dəstəkləyəcək və qarşılayacaq bir keçid planının hər bir icma üzvünün (müəllim, valideynlər, məktəb heyəti) məsuliyyətlərini və üzərinə düşən öhdəliklərin müəyyən edilməsi, icma xidmətləri və onların qanuni hüquqları haqqında məlumat əldə etmək, və ən əsası, FTP-nin yaradılması məqsədini daşıya bilər. Görüş zamanı uşağın psixoloji vəziyyəti və ibtidai sinifdə dərsin təşkili haqqında ailənin suallarını cavablandırmaq, yerləşmə və dəyişiklikləri müzakirə etmək və ibtidai sinfə daxil olmaq üçün bir ortaq plan hazırlamaq üçün məktəbəqədər qruplarında inklüziv təlim proqramının müəlliminin də görüşdə iştirak etməsi də faydalı olardı (əgər ibtidai sinifdə inkilüziv təlim proqramının müəllimi məktəbəqdərdən fərqli olarsa)





**3. *Müşahidə.*** Məşğələ başlamazdan öncə uşağa yeni sinif otaqlarına baş çəkmək və hətta məşğələnin hər hansısa hissəsində iştirak etmək imkanını yaratmaq lazımdır. Bu, ibtidai sinif müəlliminə yeni mühitdə (məsələn, böyük bir qrup içərisində, səs-küy olan mühitdə və s.) uşağın ehtiyac duyacağı əlavə dəstəyin müəyyən edilməsinə kömək edəcəkdir. Uşaqlar ibtidai sinfə keçdikdə tədricən yeni məktəb prosesləri ilə tanış olsalar, erkən uşaqlıqdan ibtidai məktəbə keçid uğurlu ola bilər.

**4. *Tədris metodlarının tədricən dəyişdirilməsi.*** Uşaqların keçid prosesinin rəvanlığını təmin etmək üçün ibtidai sinifdə də bəzi erkən uşaqlıq təhsil təcrübələrinin davam etdirilməsi tövsiyə edilir. Sinif mühiti və tədris metodları arasından uşağa "tanış olandan", yəni artıq bildiklərindən, "tanış olmayan" yəni, yeni metodlara keçid tədricən olmalıdır.

**5. *Modifikasiya.*** Məktəbəhazırlıq qrupunun müəllimlərinin uşağın gələcəkdə dərs keçəcək sinfi müşahidə etmələrini və sinfin dizaynı ilə bağlı təkliflərinin verilməsi tövsiyə edilir. Müəllim yeni mühiti müşahidə edərkən bəzi vacib məqamları nəzərə almalıdır: uşağın ibtidai sinfə rəvan keçidi üçün hansı vizual, dil və oxu gözləntiləri təmin edlməlidir? Uşaqların hazırlıq qruplarında cəlb olunduğu hansı fəaliyyətlərin və ya materialların uyğunlaşdırılması və ya dəyişdirilməsi lazımdır? Uşaqların ibtidai sinifdə müstəqil və özünə inamlı olması üçün hansı özünəxidmət və ya funksional bacarıqlarını inkişaf etdirməyimə ehtiyac var?



*6.* ***Foto kitabça.*** Uşaqlara kömək edə biləcək başqa bir keçid-dəstək strategiyası, xüsusi təhsil müəllimi, məktəbəqədər hazırlıq qrupundakı müəllim, sinif otaqları, nahar otağı və s. fotoşəkillər özündə əks etdirən bir kitabça ola bilər. Bu vəsait valideynlər və müəllim tərəfindən hazırlana bilər. Valideynlər bu kitabı yay boyu uşaqla birlikdə vərəqləyə və ya oxuya bilər.

*7.* ***Portfolio və hesabatın hazırlanması.*** Məktəbəhazırlıq qruplarında işləyən müəllim tərəfindən ibtidai sinif müəllimi üçün uşağın inkişaf dinamikası, onun təlim göstəriciləri, uşaqlarla ünsiyyət qurma bacarıqları, məktəbəhazırlıq dövründə tətbiq edilən fərdi məşğələ planı və əldə olunan təlim nəticələrinin əks olunduğu bir portfolionun hazırlanması və ibtidai sinif müəllliminə sadalanan göstəricilərlə bağlı hesabatın hazırlanması faydalı olardı. İbtidai sinif müəlliminə uşağın təlim göstəriciləri, onun inkişafı dinamikası, psixoloji xüsusiyyətləri və s. göstəricilər haqqında hesabatın nümunəsi Əlavə № 5-də təqdim edilib.

***Qeyd:*** Uşaqların keçid dövrünün rahat keçməsi üçün valideyn və məktəb heyətinin birgə əməkdaşlığı mütləqdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**


2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. (2017). https://azertag.az/xeber/2018_2024_cu_illerde_Azerbaycan_Respublikasinda_saglamliq_imkanlari_mehdud_sexsler_uchun_inkluziv_tehsilin_inkisafi_uzre_DOVLAT_PROQRAMI-1121083

Axundova, Ü., İsmayılova, M., Mirəyeva, Ü, Qəhrəmanova, D., Salmanlı, S., İsmayılova, F., Əfəndiyeva, N., Mustafayeva, S., Rzayeva, S., Həsənova, F., Məmmədova, D., Nəcəfova, Z., Monsurova, İ. (2011). *Uşaq inkişafı metodikası.* Qanun nəşriyyat.

Azərbaycan Respublikasının Konstitusiyası. (1995). http://www.e-qanun.az/framework/897

Azərbaycan Respublikasının Nazirlər Kabineti. (2019). *Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı* (№ 351). https://nk.gov.az/media/files/0c9953745e981b924cb9b45d0492dd53.pdf?sa=X&ved=2ahUKEwjg2fKK2pXnAhVy_CoKHSdMD1kQFjAJegQIAxAB

Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu. (2012). https://migration.gov.az/content/pdf/b0f981770beec0db231b06f409df3e65.pdf

Demokratik Təşəbbüslər İnstitutu. (2018). Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi. Retrieved from idi-aze.org/file/pic/xeber/2018-04/1523013132_inkluziv-tehsil_idi.pdf?1523013076.

Əlillərin hüquqları haqqında Konvensiyasının icrasına dair Azərbaycan Respublikasının ilk hesabatı. (2011). http://sosial.gov.az/uploads/images/image_750x_5dfca8f465460.pdf

Əlil şəxslər üçün xüsusi məktəbəqədər təhsil müəssisələrinin nizamnaməsi haqqında 024 nömrəli qərar. (2004). http://85.132.24.83/cw/ldb/LegalDB.nsf/GetFullText?OpenAgent&id=C4257155003D5462C4256ECA00411B40

Sağlamlıq imkanları məhdud şəxslərin pulsuz xüsusi təhsil almaq qaydası. (2002). http://www.e-qanun.az/framework/1733

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu. (2001). https://www.miq.edu.az/qanun/14.pdf

Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. (2009). http://www.e-qanun.az/alpidata/framework/data/18/c_f_18343.htm

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. (2018). İnklüziv siniflərdə təlimin təşkili. Retrieved from http://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf

Təhsil Nazirliyi, YUNİSEF & RİİB. (2019). İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları: İxtisasartırma üzrə tədris vəsaiti. Retrieved from http://www.tipii.edu.az/noduploads/document/7406_nkluziv-sinifda-talimin-taskili-oxu-materiali.pdf

Uşaq Hüquqları Konvensiyası. (1989). https://www.migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya.pdf

**Rus dilində**

Бут, Т., & Эйнскоу, М. (2007). Показатели инклюзии: практическое пособие. [İnklüziyanın göstəriciləri: praktiki vəsait] М.: РООИ «Перспектива.

**İngilis dilində**

Adams, D., Harris, A., & Jones, M. S. (2018). Teacher-parent collaboration for an inclusive classroom: Success for every child. [İnklüziv sinif üçün müəllim-valideyn əməkdaşlığı: Hər uşağın uğuru üçün]. *MOJES: Malaysian Online Journal of Educational Sciences, 4*(3), 58-72.
Retrieved from: https://files.eric.ed.gov/fulltext/EJ1106456.pdf

Aliyeva, T. A. (2014). The Diagnostic Inventory for Screening Children (DISC): Crosscultural adaptation and psychometric evaluation of the test in Azerbaijan. [Uşaqların Müayinəsi üçün Diaqnostik İnventarlaşdırma (DISC): Azərbaycanda testlərin yerlimühitə uyğunlaşması və psixometrik qiymətləndirilməsi] *Int J Adv Res, 2*(10), 734-739.

American Psychological Association. (2002). Ethical principles of psychologists and code of conduct. [Psixoloqların etik prinsipləri və davranış qaydaları] *American psychologist, 57*(12), 1060-1073.

Burns, M. K., Haegeie, K., & Petersen-Brown, S. (2014). Screening for early reading skills: Using data to guide resources and instruction [Erkən oxu bacarıqlarının skrininqi: Resurslara və təlimata rəhbərlik etmək üçün məlumatlardan istifadə]. Universal screening in educational settings: *Evidence-based decision making for schools,* 171-197.

Elliott, S. N., Braden, J. P., & White, J. L. (2001). *Assessing one and all: Educational accountability for students with disabilities.* [Hamının və hər kəsin qiymətləndirilməsi: Əlilliyi olan uşaqlar üçün təhsil hesabatlılığı] Council for Exceptional Children

Florian, L., Black-Hawkins, K., & Rouse, M. (2016). *Achievement and inclusion in schools*. [Məktəblərdə nailiyyət və inklüziya]. Rutledge.

Fowler, S. A., Schwartz, I., & Atwater, J. (1991). Perspectives on the transition from preschool to kindergarten for children with disabilities and their families. [Əlilliyi olan uşaqlar və onların ailələri üçün mək təbəqədərdən uşaq bağçasına keçid üzrə perspektivlər] *Exceptional Children, 58*(2), 136-145.

Gray, C. (2014). Comparison of Social Stories™: 10.0-10.2 criteria. [Sosial Hekayələrin müqayisəsi: 10.0-10.2 meyarları] *Pridobljeno, 28*(4), 2016

Hayes, A., Dombrowski, E., Shefcyk, A., & Bulat, J. (2018). Learning Disabilities Screening and Evaluation Guide for Low- and Middle-Income Countries. [Aşağı və orta gəlirli ölkələr üçün öyrənmə əlilliyinin qiymətləndirməsi üzrə təlimat] Research Triangle Park (NC): RTI Press

Hornby, G. (2014). *Inclusive Special Education: Evidence-Based Practices for Children with Special Needs and Dis abilities.* [İnklüziv Xüsusi Təhsil: Xüsusi Ehtiyacı və Əlilliyi olan Uşaqlar üçün Dəlillərə əsaslanan Tətbiqlər]. University of Canterbury College of Education Christchurch New Zealand

Kilgus, S. P., & Eklund, K. R. (2016). Consideration of base rates within universal screening for behavioral and emotional risk: A novel procedural framework. [Davranış və emosional risk üçün universal skrininqdə ilkin nəticələrin nəzərə alınması: Yeni prosedur çərçivəsi]. *School Psychology Forum, 10*(1), 120-130. Retrieved from https://www.researchgate.net/profile/Stephen_Kilgus/publication/299437499_Consideration_of_Base_Rates_Within_Universal_Screening_for_Behavioral_and_Emotional_Risk_A_Novel_Procedural_Framework/links/56f6ed3708ae81582bf2fb71.pdf.

Miles, S., Fulbrook, P., & Mainwaring-Mägi, D. (2018). Evaluation of standardized instruments for use in universal screening of very early school-age children: Suitability, technical adequacy, and usability. [Erkən məktəb yaşındakı uşaqların universal skrininqi üçün standartlaşdırılmış alətlərin qiymətləndirilməsi: Uyğunluq, texniki uyğunluq və istifadə]. *Journal of Psychoeducational Assessment, 36*(2), 99-119.

Moodie, S., Daneri, P., Goldhagen, S., Halle, T., Green, K., & LaMonte, L. (2014). Early Childhood Developmental Screening: A Compendium of Measures for Children Ages Birth to Five. OPRE Report 2014-11 [Erkən Uşaqlıqda İnkişafın Skrininqi: Doğuşdan beş yaşa qədər uşaqlar üçün ölçmə alətlərinin məcmuəsi. OPRE Hesabatı 2014-11]. *US Department of Health and Human Services.*

Morin, A. (n.d.). Common accommodations and modifications in school. Retrieved from https://www.understood.org/en/learning-thinking-differences/treatments-approaches/educational-strategies/common-classroom-accommodations-and-modifications

Rous, B., Teeters Myers, C., & Buras Stricklin, S. (2007). Strategies for supporting transitions of young children with special needs and their families. [Xüsusi qayğıya ehtiyacı olan azyaşlı uşaqlar və onların ailələri üçün keçid prosesini dəstəkləyən strategiyalar.] *Journal of Early Intervention, 30*(1), 1-18.

Salinger, R. L. (2016). Selecting universal screening measures to identify students at risk academically. [Akademik baxımdan riskə məruz qalan şagirdlərin müəyyənlişdirilməsi üçün universal skrininq alətləri nin seçilməsi] *Intervention in school and clinic, 52*(2), 77-84.

Salvia, J., Ysseldyke, J. E., & Bolt, S. (2013). *Assessment in special and inclusive education*" [Xüsusi və inklüziv təhsildə qiymətləndirmə]. APA (6th *ed.*)

Santrok, J.V. (2010). Introduction to child development. [Uşaq İnkişafına Giriş]. Retrieved from http://dev.n1.is/cgi/viewcontent.php?article=child.development.santrock.13th.edition.quizzes&context=libpubs

Schvarts, B. (2001). Learning through play. [Oyun vasitəsilə öyrənmə]. Retrieved from https://www.sagepub.com/sites/default/files/upm-binaries/53567_ch_10.pdf

Snow, C. E., & Van Hemel, S. B. (2008). *Early childhood assessment: Why, what, and how.* [Erkən uşaqlıqda qiymətləndirmə: Niyə, nə və necə]. Washington, DC: The National Academies Press.

Supporting success for kids with hearing loss. (2012). Accommodations for students with hearing loss [Eşitmə əlilliyi olan şagirdlər üçün akkomodasiyalar]. Retrieved from https://successforkidswithhearingloss.com/for-professionals/accommodations-for-students-with-hearing-loss/

The United Nations. (2006). Convention on the rights of persons with disabilities and optional protocol [Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya və onun Fakültativ Protokolu]. Retrieved from http://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf

University of Oregon Center on Teaching and Learning. (n.d.). *Dibels: DIBELS Initial Sound Fluency (ISF): UO DIBELS Data System*. [DIEBELS ilkin səsi tanıma sərbəstliyi]. Retrieved from https://dibels.uoregon.edu/assessment/dibels/measures/isf.php#:%7E:text=The%20DIBELS%20Initial%20Sound%20Fluency,1998%3B%20Laimon%2C%201994).https://www.edutopia.org/article/helping-children-special-needs-transition-kindergarten

Willings, C. (2018). Teaching students with visual impairments [Görmə əlilliyi olan şagirdlərin tədrisi]. Retrieved from https://www.teachingvisuallyimpaired.com/board-work-chalk-interactive-white.html

Wolery, M., & Wilbert, J. S. (1994). *Including Children with Special Needs in Early Childhood Programs. Research Monograph of the National Association for the Education of Young Children, Volume 6*. National Association for the Education of Young Children, 1509 16th Street, NW, Washington, DC 20036

Yeboah, D. A. (2002). Enhancing transition from early childhood phase to primary education: Evidence from the research literature. *Early Years: An International Journal of Research and Development, 22*(1), 51-68.

# Əlavələr

**Əlavə № 1. 3-4 yaş (psixi və fiziki inkişaf səviyyəsi) üzrə ümumi təlim nəticələrinə uyğun məşğələ nümunəsi**

**Məşğələ 1**. *ƏTRAF ALƏMLƏ TANIŞLIQ*

**Mövzu:** AİLƏMİZ

**Standart:** 2.3.1.

**İnteqrasiya:** 2.2.2.; 1.1.4.

**Məqsəd:**

- Ailəsi haqqında danışır.
- Yaxın qohumları adlandırır.
- Ailə haqqında suallara cavab verir.

**İş üsullar:** Beyin həmləsi, müzakirə, suallar.

**İş forması:** Kollektiv və fərdi iş.

**Resurslar:** Ailə tablosu, ailə üzvlərinin şəkilləri olan kartoçkalar, iş dəftəri və rəngli karandaşlar.

**Məşğələnin gedişi**

**Motivasiya**

**M**: — Uşaqlar, baxın bizim bir qonağımız var. O kimdir? (Uşaqlaraın cavabları) Tülkü nə edir? (Uşaqlaraın cavabları) Bəli, tülkü şəkillərə baxır. Şəkillərdə kimlər təsvir olunub? (Uşaqların cavabları)
Dərketmə

**M**: "Uşaqlar, sizin qayğınıza qalan, səhər yuxudan oyadan, sizə ləzzətli səhər yeməyi hazırlayan kimdir? (Uşaqların cavabları). Bizimlə evdə daha kimlər yaşayır? (Uşaqların cavabları)

**I. M:** Düzdür, bu anadır, çünki ana sənə qayğı göstərir, oyuncaqlar alır, ləzzətli nahar hazırlayır, yuyur, təmizləyir, kitablar oxuyur, səni sevir. İnsan ailədə dünyaya gəlir. Ailə ata, ana, bacı, qardaş, nənə və babadan ibarət olur.

**M:** "Birinci tapşırığa nəzər yetirək. Sizcə, bu ailədir? (Uşaqların cavabları) Onlar, nə edirlər? (Uşaqların cavabları) Bacı hansıdır? Bəs qardaş? İndi isə gəlin ata, ananı tapaq. (divanın arxasında)
(Müəllim uşaqlara suallarla müraciət edir.)

**II. M:** — Sənin bacın və ya qardaşın varmı? Onların adları nədir? və s.

— **İdman dəqiqəsi** —

**Tətbiqetmə**

**III. M:** "Şəkildə adamlar təsvir olunub. Əvvəlcə qardaşı tapın və onun altındakı dairəni yaşıl karandaşla rəngləyin. Atanı tapıb, onun altındakı dairəni qırmızı karandaşla rəngləyin. Burada ən yaşlı kimdir? (baba) Onun altındakı dairəni isə göy rəngli karandaşla rəngləyin. (Bu qayda ilə təsvir olunmuş şəkillərdən 3-ü əhatə olunur.)"

**IV. M:** "Ailə üzvlərini adlandırın. Qardaşın əlindəki şarı tapın və onun köynəyinin rənginə uyğun rəngləyin." (Bu qayda ilə 1 şəkil əhatə olunur.)

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**

**Mövzu:** BALA AYI HARADADIR?

**Standart:** 2.1.2.

**İnteqrasiya:** 3.1.9.

**Məqsəd:**

- Sadə süjetli şəkillər üzrə danışır.
- Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.

**İş üsulları:** Müzakirə, suallar.

**İş forması:** Kollektiv və fərdi iş.

**Resurslar:** Hekayənin mətni, şəkilli kartoçkalar, rəngli karandaşlar.

**Məşğələnin gedişi**

**Motivasiya**

**M**: "Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə hansı heyvanlar təsvir olunub? Onları adlandırın." (Uşaqların cavabları)

**Dərketmə**

**I. M:** "Mən indi sizə şəkildə təsvir olunan personajlarla bağlı "Bala ayı haradadır?" hekayəsini söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin (Müəllim hekayəni daha qısa söyləyə bilər).
"Ana ayı yuxudan oyandı. Gözlərini ovuşdurub ətrafa nəzər saldı. Yemək yeməsi üçün balasını oyatmaq istədi. Sağa baxdı, sola baxdı, amma balasını görmədi. Ana ayı yaman narahat oldu. Görəsən, balam hara getmiş olar? Ana ayı balasını axtarmağa başladı."

**M**: "Uşaqlar, sizcə bala ayı hara getmiş olar? (Uşaqların cavabları)
Müəllim oxumağa davam edir.
"Ana Ayı az getdi, çox getdi, bir kirpi ilə rastlaşdı. Kirpi ağacın altına tökülmüş almaları tikanlarına keçirirdi. Ayı kirpini görcək dedi:
– Kirpi, mənim balamı görməmisən?

Kirpi tikanlarını qabardıb dedi:
– Xeyr, mən sənin balanı görməmişəm. Səhərdən bala kirpilər üçün alma yığıram. Başım alma yığmağa qarışıb.

İstəyirsən sənə də verim?

Ana ayı kədərli halda dedi:
– Xeyr. Mən balamı tapmaq istəyirəm.
Ana ayı kirpi ilə sağollaşıb balasını axtarmağa davam etdi."

**M**: Uşaqlar ayı hansı heyvana rast gəldi?
Müəllim oxumağa davam edir.
"Bir az getmişdi ki, qarşısına dovşan çıxdı. Dovşanın əlində çoxlu kök var idi. Ayı dovşanı görcək dedi:
– Dovşan, mənim balamı görməmisən? Dovşan uzun qulaqlarını qaldırıb dedi:
– Xeyr, mən sənin balanı görməmişəm. Başım kökləri yığmağa qarışıb. Bala dovşanlar üçün kök yığmışam. İstəyirsən sənə də verim?
Ana ayı astadan dedi:
– Xeyr. Mən balamı tapmaq istəyirəm.
Ana ayı dovşan ilə sağollaşıb balasını axtarmağa davam etdi."

**M**: "Uşaqlar, ayının rast gəldiyi növbəti heyvan hansı idi?"
Müəllim oxumağa davam edir.
— İdman dəqiqəsi —
"Bir az getmişdi ki, budaqdan-budağa tullanan sincabı gördü. Ayı sincabı görcək dedi:
– Sincab, mənim balamı görməmisən?
Sincab uzun quyruğunu yellədib dedi:
– Xeyr, mən sənin balanı görməmişəm. Başım bala sincablar üçün qoza yığmağa qarışıb. İstəyirsən sənə də verim?
Ana ayı qəmgin-qəmgin dedi:
– Xeyr. Mən balamı tapmaq istəyirəm.
Ana ayı sincab ilə sağollaşıb balasını axtarmağa davam etdi."

**M**: "Uşaqlar, şəkildə gördüyünüz hansı heyvandır?"
Müəllim oxumağa davam edir.
Ana ayı həyəcanla ətrafa boylanırdı. Axı balasını kimdən soruşsun? Görəsən, onun balasını kim görüb?
Birdən ana ayının qulağına vızıltı səsi gəldi. Ətrafda çoxlu arı uçuşurdu. Ana ayı soruşdu:
– Ay arılar, bəlkə, mənim balamı görmüsünüz? Onu tapa bilmirəm. Çox narahatam. Arılar cavab verdilər:
– Bəli, bəli, görmüşük. Bax, orada bizim balımızı yeyir.
Ana ayı, nəhayət ki, üz-gözü bala bulaşmış, şipşirin balasını tapdı."

**II**. Müəllim suallarla uşaqlara müraciət edir:
– Ana ayı tək qalan bala üçün niyə narahat oldu? (Yardımçı suallar: Meşədə ayının başına nə gələ bilərdi?)
– Ayı bala ayının harada olduğunu hansı heyvanlardan soruşdu?

**Tətbiqetmə mərhələsi**

**III. M:** "Şəkildə hansı heyvanları görürsünüz? Ana ayının görüşdüyü heyvanla bir də baxaq və adlandıraq."
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 1-ci həftə |AİLƏ

*Məşğələ 3-4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI*

**Mövzu**: A(a) SƏSİ VƏ HƏRFİ.

**Standart**: 2.2.4.

**İnteqrasiya**: 1.1.4.

**Məqsəd**:

A hərfini seçə bilir.
A səsinin işləndiyi sözlər söyləyir.

**İş üsulları:** Əqli hücum, suallar, müzakirə.

**İş forması:** Kollektiv və fərdi iş.

**Resurslar:** Şəkillər, karandaşlar, güzgü, marker, rəndli kağız, yapışqan, lövhə və A hərfi.

**1-ci məşğələ**

**Motivasiya**

**M:** Uşaqlar bizim bu gün qonağımız var – tülkü Alı. O bizə bir zərf göndərib. Bu zərfdə şəkillər var. Bu alma şəklidir. Alma sözü hansı səslə başlayır? Bu şəkildə isə bir qız ağlayır. O ağlayanda hansı səsi çıxarır? Gəlin birlikdə A səsini tələffüz edək.

**Dərketmə**

**M:** Biz A səsini tələffüz edəndə dodaqlarımız böyük dairə yaradır. Gəlin bir də A səsini tələffüz edək və güzgüyə baxaq.

**M:** "A səsini müxtəlif sözlərdə eşidə bilərik.
Uşaqlar gəlin sizinlə bir oyun oynayaq. Mən müxtəlif hərf, heca və sözlər söyləyirəm. Siz A səsini eşitdikdə əl çalmalısınız. (a, o, u, au, ana, ata və s)

**M:** Uşaqlar, sarı çərçivədə böyük və kiçik A hərfləri təsvir olunub." Gəlin onu rəngləyək.

**I**.A hərfinin rənglənməsi.

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**

**M**: "Uşaqlar bizim çoxlu hərflərimiz var. Onların içərisindən öyrəndiyiniz A hərfini seçin." (Uşaqlar yerinə yetirir). Müəllimin təklifi ilə kəsmə əlifbanın və ya maqnit hərflərin içərisindən deyilən hərfi seçib götürür və lövhəyə yapışdırırlar.

**II. M:** Gəlin sizinlə kagızdan A hərfi düzəldək. (rəngli kağızlardan applikasiya)
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 2-ci məşğələ

**Motivasiya**

Lövhədə böyük A ilə bərabər kiçik a hərfi də asılır, yaxud proyektorla ekrana verilir. Verilmiş əlifbanın hərflərinin arasından A hərfi götürülərək, lövhəyə qoyulur. A səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik a hərfinə yönəldərək, deyir:
– Uşaqlar, hər bir hərfin həm böyük, həm də kiçik yazılış forması var.

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Hərfin ətrafında nə təsvir olunub?" (Uşaqların cavabları) Bu kiçik a hərfidir. Biz sizinlə böyük A hərfini öyrənmişik. Havada əlinizlə böyük A hərfini cızın. Uşaqlar, baxın, kitabınızda hərfin yarısı rənglənib. İndi siz eyni qayda ilə nümunəyə əsasən a hərfinin qalan hissələrini rəngləyin."

**—İdman dəqiqəsi—**

**Tətbiqetmə**

**II.** Müəllim lövhədə A hərfini izah edə-edə yazır. Uşaqlar öz kitablarında xətt üzrə A hərfini çəkir
Lövhədə hərfin möhkəmləndirilməsi üzrə iş aparılır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 1-ci həftə | AİLƏ

***Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI***

**Mövzu**: SAYMA

**Standart**: 2.3.2.

**İnteqrasiya**: 2.2.2.; 1.1.4.

**Məqsəd**:

3 dairəsində say bacarıqları nümayiş etdirir.
Əşyaları sayına görə müəyyənləşdirir.

**İş üsulları:** Əqli hücum, müzakirə, suallar.

**İş forması:** Kollektiv və fərdi iş.

**Resurslar:** Şəkillər, plastilin, rəngli karandaşlar.

## 1-ci məşğələ

**Motivasiya**

**M:** – Uşaqlar, biz bu gün tülkünü ziyarətinə gedirik.
Və tülkünü ziyarət etmək üçün avtomobillə gedəcəyik. Ancaq yola çıxmadan əvvəl həndəsi formalardan bir bir avtomobil düzəltməyi təklif edirəm

**M**: Avtomobili düzəltmək üçün iki dairə və bir kvadrat alın.
Müəllim uşaqları həndəsi formalardan necə bir avtomobil hazırladıqlarını müşahidə edir, öhdəsindən gələ bilməyən uşaqlara kömək edir. Müəllim avtomobilin hansı fiqurlardan hazırlandığını soruşur. Uşaqların cavabları (dairə, kvadrat)

**Dərketmə**

**I.M:** Müəllim uşaqların qarşısına kartoçkalar düzür. Uşaqlar ailə üzvlərini adlandırır və onları sayırlar (1-dən 3-dək). Sonra uşaqlar gözlərini yumur, müəllim kartoçkalardan birini götürür. Uşaqlar kimin olmadığını təxmin edirlər.

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**

**II. M**: "Birinci tapşırığa diqqət yetirin. Çərçivədə şəkillər və onların altında dairələr təqdim olunur. Çərçivədəki meyvələri sayın və sonra altında eyni sayda dairəni rəngləyin. 1,2 və 3 sayda meyvə verilmiş çərçivələr üzrə iş aparılır. (bu tapşırıq iş dəftərində yerinə yetirilir)

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Uşaqlar, tülkü, dostları ilə birlikdə evlərdə oynamağı sevirlər.
- Bir-birlərinə ev tikirlər, gəlin, tülkü və dostlarına ev tikməyə kömək edək.

**M: -** İlk ev neçə kubdan ibarətdir? (Birinci ev bir kubdan ibarətdir.)
İkinci evdə neçə kub var? (İki kub.)
- Növbəti evdə neçə blok var? (Üç blok.)
– Uşaqlar, gəlin evləri sayaq? (Uşaqların cavabları)

**Dərketmə**

**I. M:** "Kitabda müxtəlif sayda şəkillər təsvir edilib. Təsvir olunanları adlandırın. Əvvəlcə, qırmızı şarları tapıb, sayaq. Neçə oldu? (Uşaqların cavabları) Gəlin, sayı iki olan daha nə təsvir olunduğunu tapaq. İndi isə onları birləşdirin.

Sayı bir olanı tapın. Qarşı tərəfdəki şəkillərin arasında sayı bir olanı tapıb, onları birləşdirin."

**Tətbiqetmə**

**— İdman dəqiqəsi —**

**III. M:** "Şəkillərin hər birində çatışmayan hissələr var. Həmin hissəni müəyyənləşdirin və şəkli tamamlayın. Əgər uşaqlara çətin gələrsə: "Gəlin əvvəlcə balığın çatışmayan hissəsini müəyyənləşdirin.

Hansı hissəsi çatışmır? (quyruğu) İndi həmin hissəni tamamlayın və sair.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**1-ci həftə | AİLƏ**

*Məşğələ 7-8. TƏSVİRİ FƏALİYYƏT*

**Mövzu**: AİLƏMİZ.AİLƏMİZ

**Standart**: 3.1.4

**İnteqrasiya**: 1.1.4; 2.2.6.

**Məqsəd**:
- Yapma bacarıqları nümayiş etdirir.
- Ailə üzvlərinin obrazlarını yaradır.

**İş üsulları:** Əqli hücum, suallar, söz assosiasiyası, müzakirə.

**İş forması:** Kollektiv və fərdi iş.

**Resurslar:** Şəkillər, plastilin, rəngli karandaşlar.

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, bizimlə bir edə kimlər yaşayır? (Uşaqların fikirləri dinlənilir).
Dərketmə
**I. M:** "Uşaqlar, gəlin ailə üzvlərimizi bir daha sadalayaq. Onlardan kimlərin adları A səsi ilə başlayır. Bu sözləri söyləyək."

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**
**II. M:** "Uşaqlar, biz sizinlə bu gün plastilindən A hərfini düzəldirik.
Müəllim uşaqları A hərfinin hansı formadabir hazırladıqlarını nümayiş etdirir, öhdəsindən gələ bilməyən uşaqlara kömək edir.
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**
**M:** – Vəsaitin yuxarısındakı şəklə baxın. Orada plastilindən nə düzəldilib? (Uşaqların cavabları)
Bəli, ailə təsvir olunub. Ailə nədir? (Uşaqların cavabları)

**Dərketmə**
**I. M:** "Uşaqlar, siz də plastilindən ailə üzvlərinizin fiqurlarını düzəldin."

**— İdman dəqiqəsi —**

(Müəllim bir nümunəni uşaqlara izah edə-edə göstərir və sonra uşaqlara yerinə yetirməyi təklif edir.)

**Tətbiqetmə**
Uşaqlar, nümunəyə uyğun plastilindən ailə üzvlərinizin fiqurlarını düzəldirlər. (Müəllim öhdəsindən gələ bilməyən uşaqlara kömək edir.)
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## Əlavə № 2. 4-5 yaş (psixi və fiziki inkişaf səviyyəsi) üzrə ümumi təlim nəticələrinə uyğun məşğələ nümunəsi

*Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ*
**Mövzu**: Ailə
**Standart**: 2.1.1.
**İnteqrasiya**: 2.2.2.; 1.1.4.
**Məqsəd**:
- Ailəsi haqqında danışır.
- Yaxın qohumları adlandırır.
- Ailə haqqında suallara cavab verir.

**İş üsullar:** Beyin həmləsi, müzakirə, suallar.
**İş forması:** Kollektiv və fərdi iş.
**Resurslar:** Ailə tablosu, iş dəftəri və rəngli karandaşlar.
**Məşğələnin gedişi**
Öyrənmə əlilliyi olan uşaqlarla məşğələnin başlanğıcı həmişə əvvəlki materialın təkrarlanmasına əsaslanmalıdır. Digər uşaqlar əvvəlki mövzunu gücləndirmək üçün iş vərəqləri ilə işləyərkən (daha müstəqil olduqları üçün) müəllim öyrənmə çətinliyi olan uşaqlar ilə lüğət işi (öyrəndiyi yeni sözlər, ifadələr) və ya digər iş növləri aparır. Lüğət işlərinə daxil edilməlidir (şifahi və ya kartlar ilə). Müəllim uşaqların son məşğələdə öyrəndikləri barədə qısaca danışa bilər.
Yeni mövzunun öyrənilməsi zaman müəllim əlçatan bir versiyada yeni mövzunu uşaqlara izah edir. Bu zaman aşağıdakılardan istifadə edir: əyani vəsaitdən, bir hərəkət və ya konsepsiyadan digərinə tədricən keçid, müəllimin daimi nitq müşayiəti, lakin zəngin deyil, qısa və aydın.
(Ayrıca, alqoritm və əyani vəsaitlərdəndən istifadəni unutmayın.)
**Motivasiya**
**M:** — Uşaqlar, kitabın yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? (Uşaqların cavabları) Bəli, tülkü ailə albomunda şəkillərə baxır. Albomda kimlər təsvir olunub? (Uşaqların cavabları)
Dərketmə
**M:** "Uşaqlar, sizin də evdə albomunuz varmı? Həmin albomda kimlərin şəkilləri var?" (Uşaqların cavabları)
**I. M:** "Aralarında qohumluq münasibəti olan insanlar ailə adlanır. İnsan ailədə dünyaya gəlir. Ailə — ata, ana, bacı, qardaşdır. Ata və ananız sizin valideynlərinizdir. Onların valideyni isə sizin nənə və babanızdır. Onlar da ailə üzvləridir.
**M:** "Birinci tapşırığa nəzər yetirək. Şəkildə ailə təsvir olunub. Bu şəkildə uşaqlar varmı? Böyük qardaş nə edir? (məsələn, pişiklə oynayır). Bəs bacı nə edir? (kitaba baxır). Onlar bacı-qardaşdırlar. İndi isə onların valideynləri tapaq (divanın arxasında). Bəs divanda əyləşənlər kimdir? (nənə, baba, qardaş) (Uşaqların cavabları)"
**II.** Müəllim uşaqlara suallarla müraciət edir:
— Sənin ailə üzvlərin kimdir? (Yardımçı suallar: Sənin bacın və ya qardaşın varmı? Onlar səndən böyükdür, yoxsa kiçikdir? Adları nədir? və s.) — Ailə üzvləri bir-birinə necə qayğı göstərirlər? (Yardımçı suallar: Ağır bir şeyi qaldırmaq lazım olanda kimi köməyə çağırırsınız?) və s

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**
**III. M:** "Şəkildə 4 adam təsvir olunub. Onların fərqli yaşları var. Ən kiçik qardaşı tapın və onun altındakı dairəni yaşıl karandaşla işarə edin. Sonra isə böyük qardaşı tapın və onun altındakı dairəni sarı karandaşla işarə edin. Uşaqların atasını tapıb, onun altındakı dairəni qırmızı karandaşla işarə edin. Yaşca ən böyük kimdir? (baba). Onun altındakı dairəni isə göy rəngli karandaşla işarə edin. (Bu qayda ilə təsvir olunmuş 4 şəkil əhatə olunur.)"
**IV. M:** "Ailə üzvlərini adlandırın. Göy köynək geyinən kimdir? Bəs sarı köynəkli kimdir? Narıncı və yaşıl rəngdə köynək geyinənlər kimdir? Qardaşın əlindəki şarı tapın və onun köynəyinin rənginə uyğun rəngləyin."
(Bu qayda ilə 1və ya2 şəkil əhatə olunur.)
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

*Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI*
**Mövzu**: BALA AYI HARADADIR?
**Standart**: 2.2.2.; 2.2.1.
**İnteqrasiya**: 3.1.9.
**Məqsəd**:
- Bədii nümunə əsasında danışır.
- Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.

**İş üsulları:** Müzakirə, suallar.
**İş forması:** Kollektiv və fərdi iş.
**Resurslar**: Hekayənin mətni, şəkillər, rəngli karandaşlar.
**Məşğələnin gedişi**
**Motivasiya**
**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə hansı heyvanlar təsvir olunub? Onları adlandırın." (Uşaqların cavabları)
**Dərketmə**
**I. M:** "Mən indi sizə şəkildə təsvir olunan personajlarla bağlı "Bala ayı haradadır?" hekayəsini söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, altındakı dairəni rəngləyin". (Müəllim hekayəni daha qısa söyləyə bilər.)
"Ana ayı yuxudan oyandı. Gözlərini ovuşdurub ətrafa nəzər saldı. Yemək yeməsi üçün balasını oyatmaq istədi. Sağa baxdı, sola baxdı, amma balasını görmədi. Ana ayı yaman narahat oldu. Görəsən, balam hara getmiş olar? Ana ayı balasını axtarmağa başladı."
**M:** "Uşaqlar, sizcə bala ayı hara getmiş olar? (Uşaqların cavabları) Dinlədiyiniz hissəni əks etdirən şəkli qeyd edin."
Müəllim oxumağa davam edir.
"Ana Ayı az getdi, çox getdi, bir kirpi ilə rastlaşdı. Kirpi ağacın altına tökülmüş almaları tikanlarına keçirirdi. Ayı kirpini görcək dedi:
– Kirpi, mənim balamı görməmisən?
Kirpi tikanlarını qabardıb dedi:
– Xeyr, mən sənin balanı görməmişəm. Səhərdən bala kirpilər üçün alma yığıram. Başım alma yığmağa qarışıb. İstəyirsən sənə də verim?
Ana ayı kədərli halda dedi:
– Xeyr. Mən balamı tapmaq istəyirəm.
Ana ayı kirpi ilə sağollaşıb balasını axtarmağa davam etdi."
**M:** "Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin."
Müəllim oxumağa davam edir.
"Bir az getmişdi ki, qarşısına dovşan çıxdı. Dovşanın əlində çoxlu kök var idi. Ayı dovşanı görcək dedi:
– Dovşan, mənim balamı görməmisən? Dovşan uzun qulaqlarını qaldırıb dedi:
– Xeyr, mən sənin balanı görməmişəm. Başım köklərin yığmağa qarışıb. Bala dovşanlar üçün kök yığmışam. İstəyirsən sənə də verim?
Ana ayı astadan dedi:
– Xeyr. Mən balamı tapmaq istəyirəm.
Ana ayı dovşan ilə sağollaşıb balasını axtarmağa davam etdi."
**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."
Müəllim oxumağa davam edir.
"Bir az getmişdi ki, budaqdan-budağa tullanan sincabı gördü. Ayı sincabı görcək dedi:
– Sincab, mənim balamı görməmisən?
Sincab uzun quyruğunu yellədib dedi:
– Xeyr, mən sənin balanı görməmişəm. Başım bala sincablar üçün qoza yığmağa qarışıb. İstəyirsən sənə də verim?
Ana ayı qəmgin-qəmgin dedi:
– Xeyr. Mən balamı tapmaq istəyirəm.

Ana ayı kirpi ilə sağollaşıb balasını axtarmağa davam etdi."
**M:** "Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin."
Müəllim oxumağa davam edir.
"Bir az getmişdi ki, qarşısına dovşan çıxdı. Dovşanın əlində çoxlu kök var idi. Ayı dovşanı görcək dedi:
– Dovşan, mənim balamı görməmisən? Dovşan uzun qulaqlarını qaldırıb dedi:
– Xeyr, mən sənin balanı görməmişəm. Başım köklərin yığmağa qarışıb. Bala dovşanlar üçün kök yığmışam. İstəyirsən sənə də verim?
Ana ayı astadan dedi:
– Xeyr. Mən balamı tapmaq istəyirəm.
Ana ayı dovşan ilə sağollaşıb balasını axtarmağa davam etdi."
**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."
Müəllim oxumağa davam edir.
"Bir az getmişdi ki, budaqdan-budağa tullanan sincabı gördü. Ayı sincabı görcək dedi:
– Sincab, mənim balamı görməmisən?
Sincab uzun quyruğunu yellədib dedi:
– Xeyr, mən sənin balanı görməmişəm. Başım bala sincablar üçün qoza yığmağa qarışıb. İstəyirsən sənə də verim?
Ana ayı qəmgin-qəmgin dedi:
– Xeyr. Mən balamı tapmaq istəyirəm.
Ana ayı sincab ilə sağollaşıb balasını axtarmağa davam etdi."
**M:** "Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin."

**— İdman dəqiqəsi —**

Müəllim oxumağa davam edir.
"Ana ayı həyəcanla ətrafa boylanırdı. Axı balasını kimdən soruşsun? Görəsən, onun balasını kim görüb? Birdən ana ayının qulağına vızıltı səsi gəldi. Ətrafda çoxlu arı uçuşurdu. Ana ayı soruşdu:
– Ay arılar, bəlkə, mənim balamı görmüsünüz? Onu tapa bilmirəm. Çox narahatam. Arılar cavab verdilər:
– Bəli, bəli, görmüşük. Bax, orada bizim balımızı yeyir.
Ana ayı, nəhayət ki, üz-gözü bala bulaşmış, şipşirin balasını tapdı."

**II.** Müəllim suallarla uşaqlara müraciət edir:
– Ana ayı niyə narahat oldu? (Yardımçı suallar: Meşədə tək qalan bala ayının başına nə gələ bilərdi?) – Bala ayının harada olduğunu kim dedi? (Yardımçı suallar: Ayı bala ayının harada olduğunu kimdən soruşdu?)

**Tətbiqetmə mərhələsi**

**III. M:** "Şəkildə hansı heyvanları görürsünüz? Ana ayı birinci hansı heyvana rast gəldi? Ondan sonra kiminlə rastlaşdı? Sonuncu kimi gördü? Görüşdüyü personajları adlandırın və ardıcıllıqla xətlə birləşdirin"
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**1-ci həftə | AİLƏ**
*Məşğələ 3-4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI*
**Mövzu: A (a) SƏSİ VƏ HƏRFİ**
**Standart**: 2.2.4.
**İnteqrasiya**: 1.1.4.
**Məqsəd**:
- A səsinin işləndiyi sözlər söyləyir.
- Xətt üzrə A (a) hərfini yazır.

İş üsulları: Əqli hücum, suallar, müzakirə.

**İş forması:** Kollektiv və fərdi iş.
**Resurslar:** Şəkillər, karandaşlar, marker, lövhə və A hərfi.

**1-ci məşğələ**

**Motivasiya**
**M:** Alma sözü hansı səslə başlayır?
**Dərketmə**
**M:** "A hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı çərçivəyə diqqətlə baxaq. Burada böyük və kiçik A hərfləri təsvir olunub."
"**A** ilə Ana deyə,
Aləmə səs salırıq.
Azərbaycan sözünə
**A** ilə başlayırıq".
**M:** "Mənim söylədiyim şeirdə Ana sözü hansı səslə başlayır? Gəlin birlikdə Ana sözünü tələffüz edək. Hansı səsi eşitdiniz? Bəli, uşaqlar, A səsini eşitdiniz.
**I. M:** "Burada **A** hərfi təsvir olunub. Hərfin kənarında şəkillər təsvir olunub. Sözlərdən hansı A səsi ilə başlayır?"
(Uşaqların cavabları)
**A** hərfinin rənglənməsi.
**II.** Müəllim lövhədə **A** hərfini izah edə-edə yazır. Uşaqlar öz kitablarında xətt üzrə A hərfini çəkir.

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**
**M:** "Uşaqlar bizim çoxlu hərflərimiz var. Onların içərisindən öyrəndiyiniz A hərfini seçin." (Uşaqlar yerinə yetirir). Müəllimin təklifi ilə kəsmə əlifbanın və ya maqnit hərflərin içərisindən deyilən hərfi seçib götürür və lövhəyə yapışdırırlar.
**III. M:** "Uşaqlar, kitabın yuxarısında şəkillər var. Onları adlandırın. Baxın, hər bir şəklin yanında söz yazılıb. Diqqətlə baxıb, həmin hərflərin içərisindən A-nı tapıb, həmin pazlı nümunədəki kimi sarı karandaşla rəngləyin."
**IV. M:** "A" hərfi xətt üzrə verilib. Hərfləri xətt üzrə çəkin."
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**
Lövhədə böyük **A** ilə bərabər kiçik a hərfi də asılır, yaxud proyektorla ekrana verilir. Verilmiş əlifbanın hərflərinin arasından **A** hərfi götürülərək, lövhəyə qoyulur. **A** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **a** hərfinə yönəldərək, deyir:
– Uşaqlar, hər bir hərfin həm böyük, həm də kiçik yazılış forması var.
**Dərketmə**
**I. M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Hərfin ətrafında nə təsvir olunub?"
(Uşaqların cavabları) Bu kiçik a hərfidir. Biz sizinlə böyük **A** hərfini öyrənmişik. Havada əlinizlə böyük **A** hərfini cızın. Uşaqlar, baxın, kitabınızda hərfin yarısı rənglənib. İndi siz eyni qayda ilə nümunəyə əsasən a hərfinin qalan hissələrini rəngləyin."
**II. M:** "Burada hansı hərflər təsvir olunub? Bəli, böyük **A** və kiçik **a** təsvir olunub.

Hərflərin yerləşdiyi xanaları nümunəyə uyğun rəngləyin."

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**
**III. M:** "Kitabınızda xətt üzrə hərflər verilib. Yuxarı hissədə olan hansı hərfdir? Bəs aşağı sətirdə çəkilən hansı hərfdir?
(Nümunələr üzrə hərfin möhkəmləndirilməsi)
**M:** "Havada əlinizlə kiçik **a** hərfini cızın."

Lövhədə hərfin möhkəmləndirilməsi üzrə iş aparılır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**1-ci həftə | AİLƏ**
***Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI***
**Mövzu**: SAYMA
**Standart**: 2.3.2.
**İnteqrasiya**: 2.2.2.; 1.1.4.
**Məqsəd**:
- 5 dairəsində say bacarıqları nümayiş etdirir.
- Əşyaları sayına görə müəyyənləşdirir.

**İş üsulları:** Əqli hücum, müzakirə, suallar.
**İş forması:** Kollektiv və fərdi iş.
**Resurslar:** Şəkillər, plastilin, rəngli karandaşlar.

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabınızın yuxarısındakı şəklə diqqət yetirin. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, əl şəklidir və hər barmaqda tülkü təsvir olunub. Sizsə, şəkildə tülkünün ailə üzvlərindən kimlər təsvir olunub? Kim tülküləri saya bilər? *(Uşaqların cavabları)*

**M:** – Bəs sizin əlinizdə neçə barmaq var? Gəlin sayaq. Əlimizdə neçə barmaq oldu? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırığa diqqət yetirin. Çərçivədə şəkillər və onların altında dairələr təqdim olunur. Çərçivədəki meyvələri sayın və sonra altında eyni sayda dairəni rəngləyin. Altı çərçivənin hamısı üzrə bu qayda ilə iş aparılır.

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**

**II. M:** "İkinci tapşırığa baxaq. Burada nə təsvir olunub? Bəli, sol tərəfdə alma şəkilləri, sağ tərəfdə isə hissələri rənglənmiş çərçivələr təsvir olunub. Ən üstdəki almanı sayın və uyğun sayda hissəsi rənglənmiş çərçivə ilə birləşdirin. *(1 -2 çərçivər üzrə iş aparılır.)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim "Kim sevirsə idmanı" (*Musiqisi: Oqtay Zülfüqarov Sözləri: Səttar Zərdablı*) mahnısını səsləndirir (və ya uşaqlar birlikdə ifa edirlər).

*Kim sevirsə idmanı – 1, 2, 3, 4; Poladdan olar canı – 1, 2, 3, 4*

*İdmanı sevirik biz – 1, 2, 3, 4; Bərkiyir bədənimiz – 1, 2, 3, 4.*

**M:** – Uşaqlar, mahnıda neçəyə qədər sayılır? Gəlin əllərimizi açaq. Hər əlimizdə neçə barmaq var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Kitabda müxtəlif sayda şəkillər təsvir edilib. Təsvir olunanları adlandırın. Sağda və solda təsvir olunanları sayıb, sayı eyni olanları birləşdirin. Əvvəlcə, qırmızı şarları tapıb, sayaq. Neçə oldu? (Uşaqların cavabları) Gəlin, sayı iki olan daha nə təsvir olunduğunu tapaq. İndi isə onları birləşdirin. Sayı dörd olanları tapın. Qarşı tərəfdəki şəkillərin arasında sayı dörd olanı tapıb, onları birləşdirin."

Bu qayda ilə bütün təsvirlərlə işləyin. Tapşırıqları yerinə yetirərkən, uşaqların fikirlərini əsaslandırmaqlarına nail olmaq lazımdır.

**Tətbiqetmə**

**II. M:** "Çərçivənin damaları və şarların sayı eynidir. Əvvəlcə bənövşəyi rəngli hissələri sayıb, həmin saya uyğun şarı rəngləyin. Sonra isə sarı rəngli qutuları sayıb, şarları sarı rəngli xanaların sayına uyğun rəngləyin."

— İdman dəqiqəsi —

**III. M:** "Şəkillərin hər birində çatışmayan hissələr var. Həmin hissəni müəyyənləşdirin və şəkli tamamlayın.

***Əgər uşaqlara çətin gələrsə:*** "Gəlin, əvvəlcə velosipedin çatışmayan hissələrini müəyyənləşdirin. Hansı hissəsi çatışmır? İndi həmin hissəni tamamlayın və sair.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**1-ci həftə | AİLƏ**
*Məşğələ 7-8. TƏSVİRİ FƏALİYYƏT*
**Mövzu**: AİLƏMİZ
**Standart**: 3.1.4
**İnteqrasiya**: 1.1.4; 2.2.6.
**Məqsəd**:

- Yapma bacarıqları nümayiş etdirir.
- Ailə üzvlərinin obrazlarını yaradır.

**İş üsulları:** Əqli hücum, suallar, söz assosiasiyası, müzakirə.
**İş forması:** Kollektiv və fərdi iş.
**Resurslar:** Şəkillər, plastilin, rəngli karandaşlar.

**1-ci məşğələ**

**Motivasiya**
**M:** – Uşaqlar, ailə bilirsiniz nədir? (Uşaqların fikirləri dinlənilir).

**Dərketmə**

**I. M:** "Uşaqlar, gəlin ailə üzvlərimizi bir daha sadalayaq. (Yerinə yetirilir) Kitabınızda bir ağac təsvir olunub. Bu ailə ağacı adlanır. Ağacda boş çərçivələr verilib. Hər biriniz həmin çərçivələrə öz ailə üzvlərinizi çəkin."
**M:** "Siz əvvəlcə kimi çəkəcəksiniz? Nə üçün belə düşünürsünüz?
Sualları cavablandırdıqdan sonra işə başlayırlar.

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**
**II. M:** "Uşaqlar, biz sizinlə A hərfini öyrənmişik. Onu karandaşla yaza bilirsiniz. Havada əlinizlə A hərfini cızın. İndi isə A hərfini plastilindən düzəldin. A hərfini düzəltmək üçün neçə hissədən istifadə etdiniz? İndi isə A hərfi ilə başlayan sözlər söyləyək."
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**
**M:** – Vəsaitin yuxarısındakı şəklə baxın. Orada plastilindən nə düzəldilib? (Uşaqların cavabları)
Bəli, ailə təsvir olunub. Ailə nədir? (Uşaqların cavabları)
**Dərketmə**
**I. M:** "Uşaqlar, siz də plastilindən ailə üzvlərinizin fiqurlarını düzəldin." (Müəllim bir nümunəni uşaqlara izah edə-edə göstərir və sonra uşaqlara yerinə yetirməyi təklif edir.)

**— İdman dəqiqəsi —**

**Tətbiqetmə**
**II. M:** "Vəsaitdə xətt üzrə çəkilmiş dairələrdə şəkillər verilib. Onlar ailə üzvləridir. Həmin şəkillərin çərçivələri yoxdur. Siz həmin şəkillər üçün çərşivə düzəltməlisiniz. Bunun üçün xətt üzrə çəkərək, şəkilləri çərçivəyə alın."
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**Əlavə № 3. Erkən oxu bacarıqlarının skrininqi üsulları**

1. İlkin Səsi Tanımaq (İST) – Fonoloji anlamanı, yəni şifahi təqdim olunan sözlərin ilkin səsini tanımaq və səsləndirmək qabiliyyətini ölçən skrininq alətidir. İST skrininq aləti ilə qiymətləndirmə prosesini keçirən şəxs uşağa dörd şəkil təqdim edir, hər bir şəklin adını çəkir və təqdim olunan sözün ilk səsini ayrıca səsləndirir. Sonda, uşaqdan skrininq keçirən şəxs tərəfindən şifahi olaraq səsləndirilən səslə başlayan şəkli müəyyən etməsini xahiş edir. Əgər cavab doğrudursa, uşağa müsbət əks əlaqə verilir və növbəti şəklə keçid edilir. Əgər cavab yalnışdırsa, skrininq keçirən şəxs düzgün cavabı deyir və sözlə bərabər, ilkin səsi bir daha səsləndirir. Sonrakı mərhələdə uşaqdan verilən şəkillərdən birinin başlanğıc səsini şifahi şəkildə deməsi istənir. Skrininq keçirən düzgün səsin müəyyənləşdirilməsi və ya səsləndirilməsi üçün sərf edilən vaxtı hesablayır və bir dəqiqə ərzində düzgün cavabları ilkin səslərin sayına çevrilir. Uşağa hər bir sualı cavablandırmağa 5 saniyə vaxt verilir. İST skrininqi ümumilikdə 3 dəqiqə davam edir.

Nümunə şəkillər:





Qeyd: şəkilləri seçərkən uşaqların tanıdığı əşyaların şəkillərinin olması vacibdir.

***Cavabların qeydə alınma forması:***

Skrininq keçirən şəxs əli ilə şəkilləri göstərərək adlarını sadalayır: “siçan, gül, yastıq, məktub”. Sonra o nümunə olaraq ilk şəklin ilk səsini səsləndirir. Sonda uşaqdan soruşulur:

| | | | |
|---|---|---|---|
| 1. | Hansı şəkil /g/ səsi ilə başlayır? | 1 | 0 |
| 2. | Hansı şəkil /s/ səsi ilə başlayır? | 1 | 0 |
| 3. | Hansı şəkil /y/ səsi ilə başlayır? | 1 | 0 |
| 4. | “Məktub” sözü hansı səslə başlayır? | 1 | 0 |

Beləliklə, düzgün cavaba 1, səhv cavab isə 0 bal verilir. Qiymətləndirmə məktəbəqədər yaşlı uşaqlar üçün keçirildiyindən onların qarşısına 2 növ əşya qoyulur: saniyə-ölçən və “STOP” işarəsi olan əşya. Bu, onlara vaxtı izləmək və nə zaman dayanmalı olduğunu vizual olaraq görüb anlamağa kömək edəcəkdir.

Nümunə:



2. Sözlərin səslərə bölünməsi (SSB) – bu alət məktəbəqədər dövrdən başlayaraq birinci sinfin ortalarına kimi tətbiq olunan skrininq alətidir. SSB uşağın sözləri fərdi səslərə bölmək qabiliyyətini qiymətləndirir. Tələffüzü 3-4 səsdən ibarət sözlər 1 dəqiqə ərzində şifahi şəkildə təqdim olunur və uşağa sözlərdəki səsləri şifahi şəkildə təkrarlanması tapşırılır. Dəqiqə ərzində düzgün sadalanan səslərin sayı uşağın nəticədə aldığı balı göstərir. SSB alətinə daxildir: ölçmə zamanı istifadə olunan materiallar (iki sütunda yerləşdirilmiş 12 sözdən ibarət və onların fonematik (səs) təhlili əks olunan 8,5 × 11 vərəqli ağ kağız) və saniyə-ölçən.

*Müəllim üçün nümunə:*

| | | | | |
|---|---|---|---|---|
| **Ana** | /a/ /n/ /a/ | **Dağ** | /d/ /a/ /ğ/ | ____ /6 |
| **Göz** | /g/ /ö/ /z/ | **Tar** | /t/ /a/ /r/ | ____ /6 |
| **Bal** | /b/ /a/ /l/ | **Kök** | /k/ /ö/ /k/ | ____ /6 |
| **Yay** | /y/ /a/ /y/ | **Nənə** | /n/ /ə/ /n/ /ə/ | ____ /7 |
| **Söz** | /s/ /ö/ /z/ | **Fil** | /f/ /i/ /l/ | ____ /6 |
| **Çənə** | /ç/ /ə/ /n/ /ə/ | **Şam** | /ş/ /a/ /m/ | ____ /7 |
| **Qol** | /q/ /o/ /l/ | **Çay** | /ç/ /a/ /y/ | ____ /6 |
| **Meşə** | /m/ /e/ /ş/ /ə/ | **Ot** | /o/ /t/ | ____ /6 |
| **Hin** | /h/ /i/ /n/ | **Uzun** | /u/ /z/ /u/ /n/ | ____ /7 |
| **Gül** | /g/ /ü/ /l/ | **İt** | /i /t/ | ____ /5 |
| **Lalə** | /l/ /a/ /l/ /ə/ | **Top** | /t/ /o/ /p/ | ____ /7 |
| **Rəf** | /r/ /ə/ /f/ | **Mədə** | /m/ /ə/ /d/ /ə/ | ____ /7 |
| | | | **Ümumi** | ____ **/76** |

Skrininq prosesinə əlilliyi olan uşaqların cəlb olunduğunu nəzərə alaraq, sözlərin şifahi deyilməsi ilə yanaşı, sözləri təsvir edən şəkillərin də təqdim edilməsi faydalı olar. Əgər uşaq şifahi olaraq eşitdiyi səsləri ifadə etmək istəmirsə, o zaman ona kart və jetonlarla bunu etməyi tapşırmaq olar. Bu, uşağın skrininq prosesinə marağının artırılmasına da kömək edəcəkdir.

*Nümunə 1:*



*Nümunə 2:* Sözlərin səslərə bölünməsi bacarığının ölçülməsi üçün istifadə oluna biləcək təcrübə kartları.



**Hərf Adlandırma Sərbəstliyi (HAS)** – adətən uşaq bağçasında və birinci sinifdə erkən oxu bacarıqlarının skrininq aləti kimi istifadə edilir. HAS bacarığı uşaqların gələcək oxu nailiyyətlərini proqnozlaşdıran bacarıqlarından biri hesab edilir. HAS aləti ilə skrininq zamanı uşaqlara təsadüfi qaydada düzülmüş böyük və kiçik hərflərdən ibarət bir vəsait təqdim olunur və onlardan bacardıqları qədər çox tanıdıqları hərflərin adlarını çəkmələri xahiş olunur. HAS skrininq alətinə daxildir: 11 sırada yerləşən 10 böyük və kiçik hərflər əks olunan 8,5 × 11 ölçüdə ağ kağız. Uşaqlar mümkün qədər çox hərf səsləndirməsinə 1 dəqiqə vaxtı var. Düzgün adlandırılan hərf sayı yekun bal kimi qəbul edilir.



SENTYABR

Hərfləri bacardığın qədər sürətlə oxu. Bir dəqiqə ərzində nə qədər hərf tapa biləcəyinə bax.

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| F | a | Z | ü | İ | H | n | F | c | J |
| E | S | d | t | X | a | R | Z | j | g |
| P | l | E | c | R | v | Z | B | q | K |
| I | V | L | r | u | H | Y | m | Q | ğ |
| I | V | L | r | u | H | Y | m | Q | ə |
| T | h | F | i | z | O | F | s | d | G |
| P | m | o | p | ə | v | N | M | z | p |
| A | J | k | m | Ğ | I | q | m | p | C |
| E | ə | a | K | Ş | ç | Z | v | T | x |
| Ç | P | n | Ö | s | M | f | D | l | I |
| K | r | B | O | z | y | ü | T | Ş | ə |

| **Uşağın adı** | **Planın tərtib edildiyi tarix** |
|---|---|
| | |

**Uşaq haqqında məlumat**

Təvəllüd______________ Yaş ______________

Cinsi ______________

Məktəb ____________________________________________

Valideynlər __________________________________________

Diaqnoz və əsas çətinlikləri (sensor və fiziki, sosial-emosional, koqnitiv):

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

Əlaqə telefonu və ünvanı: ______________________________________

____________________________________________________________
____________________________________________________________

**Fərdi təlim planı komandasının tərkibi**

| Rolu | Adı | Təhsili | Telefon | İmza |
|---|---|---|---|---|
| Müəllim | | | | |
| Valideyn/ himayədar və s. | | | | |
| Məktəbin nümayəndəsi (direktor, tədris hissə müdiri) | | | | |
| Psixoloq | | | | |
| Loqoped | | | | |

| I. Uşağın hal-hazırkı inkişaf |
|---|
| **Aşağıda qeyd olunmuş sahələrdə uşağın bacarıqlarını və məhdudiyyətlərini qeyd edin.** |
| **a) Uşağın fiziki inkişafı (böyük motor: sərbəst hərəkət, fəaliyyətlərə qoşulma, təlimatlara riayət etmə).**<br><br>*Samir sərbəst hərəkət edir, əksər fəaliyyətlərdə iştirak edir, təlimatlara riayət edir.* |
| **b) Uşağın sosial və emosional inkişafı (məktəb mühitində adaptasiya, həmyaşıdları ilə ünsiyyət yaratmaq bacarığı, başqalarından asılı olub-olmaması, emosional vəziyyəti, özünə qulluq bacarığı və s.).**<br><br>*Samir məktəb mühitinə çətin adaptasiya olunur. Ünsiyyətə girmək bacarığı aşağı səviyyədədir. Emosional vəziyyəti stabildir. Özünə qulluq bacarıqları var.* |
| **c) Əqli inkişaf səviyyəsi (riyaziyyat, oxu və yazı məşğələlərinə qoşulma, rəngləri fərqləndirmə, həndəsi fiqurları tanıma, kiçik motorikanın inkişafı və s.)**<br><br>*Samir riyaziyyat məşğələlərinə qoşulmur. Həndəsi fiqurları seçmir. Kiçik motorikası zəif inkişaf edib. Sinir və əzələ gərginliyi müşahidə olunur. Qələmi tutmaqdan imtina edir. Diqqətini bir neçə elementin üzərində cəmləyə bilmir.* |

| II. Müəllimin fəaliyyəti | |
|---|---|
| **Məqsəd** | Samiri məşğələlərdə fəaliyyətə qoşmaqla sosiallaşdırmaq;<br>Riyazi-məntiqi təfəkkürünü inkişaf etdirmək. |
| **Fəaliyyət planı** | 1. Samiri birinci partada əyləşdirmək.<br>2. Lövhədə yazdıqlarımı ucadan oxumaq.<br>3. Diqqətini məşğələnin üzərində cəmləyə bilməsi üçün ona əlavə əyani vəsaitlər hazırlamaq.<br>4. Samirin sinir və əzələ gərginliyinin olduğunu valideynlərə bildirmək, peşəkar müayinəyə aparmağı tövsiyə etmək.<br>5. Samiri riyaziyyatı yaxşı dərk edən sinif yoldaşı ilə bir partada əyləşdirmək. Lazım olarsa, bu uşaq materialı Samir üçün səsli oxuyacaq.<br>6. Fərqliliyə dözümlü yanaşma bacarıqlarını inkişaf etdirmək üçün uşaqlarla sinifdaxili seminarlar təşkil etmək. |
| **Hədəf tarixləri** | 1.5 – 2 ay |

| | |
|---|---|
| **Hədəf tarixləri** | 1.5 – 2 ay |
| **Qeydlər** | 20.10.2018-ci il tarixində Samiri nevropatoloq və psixoloq müayinə etdi. Ona problemi ilə əlaqədar müalicə təyin edildi.<br><br>25.10.2018-ci il tarixində məktəbin psixoloqu və loqopedi Samir ilə ilk məşğələ keçirdi. |
| **Nəticə** | 29.12.2018. Samir məşğələlərdə nisbətən aktivdir. Ona kömək edən sinif yoldaşı ilə rahat ünsiyyətə girir.<br><br>Riyazi-məntiqi təfəkkürü zəif olaraq qalır. |

| III Xüsusi Xidmətlər | | | | |
|---|---|---|---|---|
| **Xüsusi xidmətlər** | **İşin məqsədi** | **Başlama tarixi** | **Xidmətin göstərilmə müddəti** | **Nəticə** |
| **Psixoloq** | Diqqətin korreksiyası | 25.10.2018 | 1.5 – 2 ay | 29.12.2018-ci il. Diqqətini eyni zamanda üç obyektə yönəldir. |
| **Loqoped** | Kiçik motor əzələlərinin gərginliyinin azaldılması | 25.10.2018 | 2 ay | 29.12.2018-ci il. Kiçik motor əzələlərinin gərginliyi azaldı |
| **Məktəbdən kənar xüsusi xidmət** | Nevropatoloq müayinəsi | 20.10.2018 | | Müalicə müəyyən edildi. Valideyn dərmanları qeyri-müntəzəm verir. |

**Valideynlərin təklifləri, rəyi və gözləntiləri:**

| FTP-nin icrasına məsul şəxs: | | |
|---|---|---|
| Adı | Vəzifəsi | İmzası |
| | | |

**Əlavə № 5. Hesabat nümunəsi**

**Uşağın akademik göstəriciləri və psixi inkişaf dinamikası ilə bağlı ibtidai sinif müəllиminə təqdim edilən**

## YEKUN HESABAT

MƏKTƏBİN №-si

Müəllimin adı, soyadı, ata adı________________________________________________

| Uşaq haqqında ümumi məlumat | |
|---|---|
| Adı, soyadı, ata adı | |
| Doğum tarixi | |
| Psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi | |

| Uşaq haqqında ümumi məlumat | | | | |
|---|---|---|---|---|
| **Sağlamlıq, fiziki və psixi inkişaf sahələri** | I skrininq | II skrininq | III skrininq | IV skrininq |
| | İnkişaf səviyyəsi (yaşla) | İnkişaf səviyyəsi (yaşla) | İnkişaf səviyyəsi (yaşla) | İnkişaf səviyyəsi (yaşla) |
| Görmə | | | | |
| Eşitmə | | | | |
| Fiziki inkişaf və koordinasiya | | | | |
| İdrakın inkişafı (koqnitiv inkişaf) | | | | |
| Sosial-emosional inkişaf | | | | |
| Erkən oxu bacarıqları | x | x | x | |
| Erkən riyazi bacarıqlar | x | x | x | |

| Tətbiq olunan Fərdi Təlim Planının təsviri |
|---|
| |

| Təlim zamanı edilən modifikasiyalar və akkomodasiyalar. |
|---|
| |

| Uşağın təlim nəticələri | | |
|---|---|---|
| Bilir | Bacarır | Tətbiq edir |
| | | |

| Uşaqla bağlı ümumi müşahidələr: yaşadığı çətinliklər və onların həlli yolları |
|---|
| |

| Uşaqla bağlı müəllimə yekun tövsiyələr |
|---|
| |

Tarix: "___" ____________ 20__ il

Soyad:________________________

İmza:_________________________